HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 45 (735) ■ 19 noyabr 2014 www.vergiler.az Qiymәti: 40 qәp.

# İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycana səfəri

*Noyabrın 12-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycan Respublikasına rəsmi səfər edib. Prezident İlham Əliyev İranın dövlət başçısını qarşılayıb.*



Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlətimizin başçısı İran Prezidentinin Azərbaycana ilk rəsmi səfərinin uğurlu keçəcəyinə və ikitərəfli əlaqələrimizə yeni təkan verəcəyinə əminliyini ifadə edib. Ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu xatırladan Prezident İlham Əliyev hazırda əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğunu diqqətə çatdırıb: «Əlaqələrimizin təməlində tarixi tellər, ortaq mədəniyyət tarixi dayanır ki, bu da inkişafda olan bugünkü əlaqələrimizin rəmzidir. Mən əminəm ki, bu gün və sabah keçiriləcək danışıqlar, aparılacaq fikir mübadiləsi İran ilə Azərbaycan arasındakı əlaqələri daha da irəliyə aparacaq. Müzakirə ediləsi məsələlər çoxdur. Bütün məsələlər çox səmimi şəkildə müzakirə olunur. Bizim niyyətimiz də birdir ki, xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxın edək. Bu, bizim əsas məqsədimizdir və bu hədəfə doğru inamla irəliləyirik».

İran Prezidenti Həsən Ruhani bildirib ki, bu səfəri əvvəlki görüşlərimizlə bərabər elə bir səviyyədə qiymətləndiririk ki, qarşılıqlı əlaqələrin genişlənməsi və möhkəmlənməsi üçün irəliyə atılan addım olsun: «Biz Davosda, Tehranda, Həştərxanda və bu gün də Bakıda görüşürük, müzakirələr aparır və artıq bu, bizim dördüncü görüşümüzdür. Düşünürəm ki, biz dörd mərhələdə irəliyə doğru addımlar atmışıq. Şübhə yeri yoxdur ki, ölkələrimiz arasındakı əlaqələr iki xalqın mənafeyinə xidmət edəcək. Ölkələrimiz arasındakı əlaqələrin genişlənməsi üçün mövcud olan imkanlardan yaxşı istifadə edə bilərik. Əvvəlki bütün danışıqlarda, məsul şəxslərin görüşlərində və əldə olunan razılaşmalarda biz iki ölkə arasında mövcud olan imkanların yalnız cüzi hissəsindən istifadə etmişik. Amma bununla yanaşı, iqtisadi, mədəni, sərhəd məsələlərində, Xəzər dənizindən istifadə, həmçinin siyasi, beynəlxalq məsələlərdə əməkdaşlıq üçün böyük potensial var. Biz bu gün və sabah danışıqlarda bütün sahələrdə əməkdaşlığın genişlənməsi üçün imkanlardan istifadə edəcəyik. Yaranan fürsətdən istifadə edib maraq doğuran bütün məsələlər haqqında müzakirələr aparacağıq. Şübhəsiz ki, bütün bu danışıqlar yaxın gələcəkdə növbəti əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə təsir göstərəcək».

Sonra dövlət başçılarının təkbətək görüşü olub. Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib. Bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirilib, ikitərəfli münasibətlərə, qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olub. Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə İranın Enerji Nazirliyi arasında Anlaşma Memorandumu, Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi ilə İranın İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Anlaşma Memorandumu, Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İranın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında poçt sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, həmçinin Azərbaycan və İran hökumətləri arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu və Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sərhəd çaylarının nizamlanması və sahillərin mühafizəsi tədbirləri üzrə əməkdaşlıq haqqında Memorandumu imzalanıb. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev çıxışında bildirib ki, İran-Azərbaycan əlaqələri yüksələn xətlə inkişaf edir: «Mütəmadi təmaslarımız, yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri, beynəlxalq təşkilatlarda bir-birimizə göstərilən dəstək siyasi əlaqələrimizin yüksək səviyyədə olmasını əyani şəkildə sübut edir. Biz üzv olduğumuz beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik və bütün məsələlərdə bir-birimizin yanındayıq. Ölkələrimiz üçün ən vacib və həssas məsələlərdə də biz qarşılıqlı dəstək göstəririk. BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər təşkilatlarda biz həmişə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Azərbaycan üçün ən vacib problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də biz İranın dəstəyini həmişə hiss edirik. İranın mövqeyi beynəlxalq hüquqa və ədalətə söykənir».

Prezident Həsən Ruhani bəyanatında qeyd edib ki, hər iki ölkənin inkişafı bir-birinin iqtisadi inkişafına öz töhfəsini vermiş olar: «Azərbaycan Respublikası, o cümlədən İran elə bir coğrafi mövqedə yerləşir ki, onlar bir-biri üçün keçid-körpü ola bilər və biz Oman dənizindən, Hind okeanından tutmuş Asiyadan Avropaya qədər körpülərimizi birləşdirə bilərik. Biz Azərbaycan və Qafqaz vasitəsilə Avropa ilə birləşə bilərik. Azərbaycan da İran vasitəsilə cənub dənizləri ilə, okeanlarla birləşmiş olar. Biz gərək bu dəhlizdən çox yaxşı istifadə edək, bundan faydalanaq və bunu daha da genişləndirək və çalışaq ki, bir-birimizə kömək etməklə Qəzvin-Rəşt və Rəşt-Astara dəmir yolunun tikintisinə və birləşməsinə nail olaq. Biz bu dəhliz vasitəsilə Qara dənizə və Avropaya, Rusiyaya çıxaq, onların dəmir yolu sisteminə birləşək. Biz bu sahədə əməkdaşlıq etməliyik».

Noyabrın 13-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib. Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani nitq söyləyiblər. Dövlət başçıları bildiriblər ki, biznes-forum iki ölkənin iş adamları üçün əməkdaşlıqda yeni səhifə açacaq, qarşılıqlı sərmayə qoyuluşlarını artıracaq.

**rəsmi xronika**

## İkitərəfli əməkdaşlıq uğurla davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri, iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Sultan Bin Səid Əl Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nazir Sultan Bin Səid Əl Mansuri ölkəmizə səfərindən ötən dövr ərzində Bakıda gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğulayıb. Azərbaycanın əldə etdiyi uğurların BƏƏ-də maraqla izlənildiyini deyən qonaq ölkələrimiz arasında iqtisadi, siyasi, investisiya qoyuluşu, birgə əməkdaşlıq sahələrində və digər sahələrdə münasibətlərin inkişaf etdirilməsinin regional əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd edib.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərində böyük inkişafa nail olunduğunu məmnunluqla qeyd edib. Ölkəmizdə yeni inkişaf layihələrinin uğurla icra olunduğunu vurğulayan Prezident İlham Əliyev Sultan Bin Səid Əl Mansurinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin ölkəmizdə həyata keçirilən investisiya layihələri ilə yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirib.

Görüşdə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əməkdaşlığın iqtisadiyyatın müxtəlif sahələrində inkişaf etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanda bütün dinlərə hörmətlə yanaşılır

Noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev «Dini tolerantlığın möhkəmləndirilməsi: (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)» mövzusunda beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul edib.

Görüşdə çıxış edən Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyev, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Qafqaz Müsəlmanları İdarəsinin Rusiya Federasiyasındakı səlahiyyətli nümayəndəsi Şafik Pşixaçev Azərbaycanın müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən sarsılmaz dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant bir ölkə olduğunu bildiriblər.

# Prezident İlham Əliyev Gəncə və Şəmkirdə olub

*Noyabrın 14-də Azərbaycan Resrublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərinə səfər edib. Dövlətimizin başçısı əvvəlcə ərazisində 600 məcburi köçkün ailəsi üçün salınan yeni qəsəbənin açılışında iştirak edib.*



Bildirilib ki, Gəncə şəhərinin Kəpəz rayonu ərazisində yerləşən qəsəbə 60 hektar sahəni əhatə edir. Qəsəbədə 600 ev, inzibati bina, tibb məntəqəsi, klub-icma mərkəzi, poçt binası tikilib. Burada 60 birotaqlı, 255 ikiotaqlı, 230 üçotaqlı və 55 dördotaqlı mənzil var. Qəsəbədə Kəlbəcər rayonundan və Xocalıdan ölkənin müxtəlif ərazilərində, o cümlədən Gəncə şəhərində və Hacıkənd qəsəbəsində müvəqqəti məskunlaşmış məcburi köçkünlər yaşayacaq.

Sonra Prezident İlham Əliyev 50 yerlik uşaq bağçasının aşılış mərasiminə qatılıb. Dövlətimizin başçısı Xocalı rayon Kosalar kənd tam orta məktəbində də olub. Məktəbin 440 şagird yerlik binasının foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin qaçqın və məcburi köçkün ailələri ilə görüşlərindən, onların problemlərinin həlli ilə bağlı görülən işlərdən bəhs edən fotostend yaradılıb.Məktəbdə şagirdlərin ən yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait var. Qəsəbənin elektrik enerjisi, içməli su və qaz təchizatı ilə bağlı da hərtərəfli iş aparılıb. Burada yarımstansiyalar genişləndirilib, komplektləşdirilmiş transformator yarımstansiyaları quraşdırılıb, uzunluğu 30 kilometrdən çox olan su kəməri çəkilib, nasosxana binası inşa olunub. Qəsəbəyə uzunluğu təqribən 25 kilometr olan qaz xətti çəkilib və 6 qaztənzimləyici məntəqə yaradılıb. Burada müasir yol-küçə infrastrukturu qurulub.

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəmkir rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib. Sonra ölkə Prezidenti Şəmkirçay su anbarının və çörək zavodunun açılış mərasiminə qatılıb, həmçinin «Şəmkir Aqropark»ın təməlqoyma mərasimində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şəmkir hərbi birliyinin hərbi şəhərciyi ərazisində yeni inşa olunmuş qərargah binasının açılışında da iştirak edib. Dövlətimizin başçısına bildirilib ki, üçmərtəbəli bina ordu birliyinin tabeliyindəki birləşmə və hissələrin idarə olunması, idarə heyətinin generalları, zabit və gizirlərin xidmət aparmaları üçün təyin edilib və burada 76 xidməti otaq var. Yeni qərargahda birləşmə və hissələrin döyüş tapşırıqlarını yerinə yetirmələri, qərargah təlimlərinin keçirilməsi, döyüş və səfərbərlik hazırlığı, həmçinin maddi-texniki təminat məsələlərində vaxt itkisinə yol verilməməsi və qoşunların operativ idarə olunması üçün müasir avadanlıqla təchiz edilən taktiki siniflər, çertyoj və kompyuter otaqları, rabitə qovşağı və ordu korpusunun müdafiə zolağını əks etdirən maket otaqları qurulub. Ordu korpusunun rabitə sistemi müasir tələblərə uyğun fiber-optik kabel üzərindən yeni texnologiyalarla təchiz olunub. Burada müasir avtomat telefon stansiyaları quraşdırılıb. Hərbi hissənin ərazisində hərbi qulluqçular üçün nəzərdə tutulan tam təmirli 50 xidməti mənzildən ibarət beşmərtəbəli bina da inşa olunub.

Daha sonra dövlətimizin başçısına hərbi qulluqçuların yay-qış geyim formaları göstərilib. Bildirilib ki, pilot variantda hazırlanan və hərbi hissələrdə istənilən iqlim şəraitində sınaqdan keçirilən yeni formalar yüksək dözümlülüyü və davamlılığı ilə fərqlənir. Eyni zamanda, hərbi qulluqçuların yataq şəraiti yaxşılaşdırılıb, köhnə tip əsgər çarpayıları müasir bir və ikimərtəbəli çarpayılarla əvəz olunub. Hazırda stasionar və çöl şəraitində yerləşən hərbi hissələrdə hamam-camaşırxana və məişət otaqlarının avadanlığının yeniləri ilə əvəz olunması istiqamətində müvafiq işlər görülür.

2 Daxili nəzarət tədbirlərinə diqqət artırılır

3 Güzəştli maliyyələşmə sahibkarlığın inkişafına təkan verir

4 Bələdiyyələrin vergi informasiya sistemi yaradılır

5 Xarici sərmayəçilər sənaye texnoparklarında yeni planlar həyata keçirirlər

# 2014-cü ilin yanvar-oktyabr aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 6 milyard 144 milyon 974 min manat vəsait daxil olub

*Bu məbləğin 34,9%-i mənfəət vergisinin, 26,9%-i əlavə dəyər vergisinin, 12,9%-i fiziki şəxslərin gəlir vergisinin, 10,4%-i aksizlərin, 14,9%-i isə digər vergilərin payına düşür.*

**Yanvar-oktyabr ayları üzrə vergi daxilolmaları**




Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 3 milyard 535 milyon 282,4 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,5% çoxdur.

Yanvar-oktyabr aylarında respublika üzrə 68 min 798, yəni ötən ilin müvafiq dövrü ilə müqayisədə 15% çox vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 noyabr 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9% artaraq 597.799-a çatmışdır. Bu dövr ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,4% təşkil etmişdir.

# Namizədlər üçün test imtahanı

Vergilər Nazirliyi Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ilə birgə noyabrın 16-da Bakı Dövlət Universitetində vergi orqanlarına işə qəbul olunmaq istəyən namizədlər üçün test imtahanı keçirmişdir. «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında» Əsasnaməyə müvafiq olaraq keçirilmiş imtahanda iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 1936 nəfərdən 1717-nin sənədləri qəbul olunmuş, imtahanda 1373 nəfər iştirak etmişdir. İmtahanda iştirak edən namizədlərdən 289 nəfəri 70 minimum keçid balından yüksək bal toplayaraq növbəti mərhələyə - müsahibəyə buraxılmışdır.

Növbəti mərhələdə namizədlər Vergilər Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən təşkil olunan müsahibədən keçməlidirlər. Bu mərhələdən də uğurla keçənlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər. Müsahibənin dəqiq vaxtı və nəticələri barədə Vergilər Nazirliyinin rəsmi internet saytında (www.taxes.gov.az) və kütləvi informasiya vasitələrində məlumat veriləcəkdir.

Xatırladaq ki, indiyədək keçirilmiş 9 müsabiqə nəticəsində vergi xidmətinə 1000 nəfərdən çox gənc işə qəbul olunmuşdur.

# Vergi borcunu ödəməyənlər cəzalandırılıb

Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Bakı şəhərində yerləşən «M&M» məhdud məsuliyyətli cəmiyyətinə məxsus «Empire» mehmanxanasında əmlak siyahıya alınınmışdır. Vergi ödəyicisinin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 27 min 628 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə ona bildiriş göndərilsə də borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək məqsədilə obyektdəki əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və 10 min manat dəyərində məişət avadanlıqları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Bakı yerləşən daha bir müəssisədə - fiziki şəxs Əzizova Sona Nadir qızına məxsus «Nurlan» mağazasında da əmlak siyahıya alınmışdır. Vergi ödəyicisinin 2 min 242 manatlıq vergi borcu olduğundan, borcun ödənilməsinin təmin edilməsi məqsədilə mağazadakı 2 min 300 manat dəyərində geyim və kosmetika məhsulları siyahıya alınmışdır.

Bakının Nəsimi rayonunda yerləşən «Toğrul» firmasına məxsus plastik məmulatlar istehsal edən sexdə vergi ödəyicisinin 6 min 971 manat məbləğində yaranmış vergi borcunun ödənilməsini təmin etmək üçün obyektdəki 7000 min manat dəyərində xammal və hazır məhsul müəyyən olunmuş qaydada siyahıya alınmışdır.

# «Vergi dostları» görülmüş işləri müzakirə edirlər

***Vergilər Nazirliyinin bir qrup əməkdaşı bu məqsədlə 3 saylı Ərazi Vergilər İdarəsində olub***

*Xaçmaz, Qusar və Quba rayonlarının hər biri üzrə seçilmiş bir nümunəvi «vergi dostu»nun təşkilatçılığı ilə yaşadıqları və fəaliyyət göstərdikləri kəndlərdə layihə iştirakçıları tərəfindən görülmüş işlər, problem və nəticələr mövzusunda «dəyirmi masa»lar keçirilmişdir.*

Hər görüşdə rayon təhsil şöbəsinin müdiri, kənd bələdiyyəsinin və kənd icra nümayəndələri, kənddə fəaliyyət göstərən vergi ödəyiciləri, kəndin ziyalıları, məktəb müəllimləri, qonşu kəndlərdə fəaliyyət göstərən digər «vergi dostları» da iştirak etmişlər. Ümumilikdə, tədbirə rayon ictimaiyyətinin 180 nəfərədək nümayəndəsi qatılmışdır.

Bu görüşlərin davamı olaraq Quba və Qusar rayonlarını təmsil edən «vergi dostları»na əhali arasında məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini gücləndirmək, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin çeşidini artırmaq, sadələşdirilmiş və torpaq vergisi bəyannamələrinin elektron qaydada doldurulması qaydaları və internet vasitəsilə vergi orqanına təqdim edilməsi mövzusunda təlim keçilmişdir.

Xatırladaq ki, «Vergi dostları» şəbəkəsinin yaradılmasına və fəaliyyətinin təşkilinə 2012-ci ilin əvvəlindən başlanmışdır. Layihə çərçivəsində indiyədək respublikanın ərazi vergilər departamentləri və idarələrinin, rayon vergilər şöbələrinin əhatə dairəsinə daxil olan 53 rayon üzrə ümumtəhsil məktəblərinin müəllimlərindən ibarət 1541 nəfər «vergi dostu» seçilmişdir.

Fəal «vergi dostları» tərəfindən müxtəlif tədbirlər keçirilmiş, onlara yerli vergi orqanları tərəfindən mütəmadi kömək göstərilmiş, «vergi dostu» seçilmiş müəllimlərin fəaliyyətinin əlaqələndirilməsi, eləcə də gördükləri işlər barədə operativ məlumat vermək imkanlarının genişləndirilməsi, bu sahədə təcrübələrini bölüşmələri məqsədilə «Facebook» sosial şəbəkəsində «Vergi dostları» qrupu yaradılmışdır.

# İqtisadiyyat sahəsində çalışınların əməkhaqqı artıb

*Bu il oktyabrın 1-dək ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1507,4 min nəfər təşkil edib. Onlardan 883,7 min nəfəri dövlət bölməsində, 623,7 min nəfəri isə qeyri-dövlət bölməsində fəaliyyət göstərib.*

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, muzdla işləyənlərin 22,2 faizi təhsildə, 18,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmirində, 12,7 faizi sənayedə, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində, 1,7 faizi informasiya və rabitədə və 17,4 faizi iqtisadiyyatın digər sahələrində çalışıb.

Cari ilin yanvar-sentyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 441,6 manata çatıb. İqtisadiyyatın mədənçıxarma sənayesində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

# Daxili nəzarət tədbirlərinə diqqət artırılır

*Noyabr ayının 17-də yerli vergi orqanlarının daxili nəzarətə məsul şəxslərinin iştirakı ilə təlim keçirilmişdir.*

Tədbirin əvvəlində Daxili təhlükəsizlik Baş İdarəsinin rəisi Taryel Quliyev bildirmişdir ki, «Vergi orqanlarında daxili nəzarət sisteminin təşkili» Qaydalarının tətbiqində əsas məqsəd vergi orqanlarında özünənəzarət prinsipinə əsaslanan daxili nəzarət sistemini təşkil etməkdir. Qaydalara əsasən, vergi orqanlarında yaradılmış daxili nəzarət qrupları şəxsi heyətin əmək, icra və xidmət intizamı məsələlərini daim diqqətdə saxlamalı, bu istiqamətdə mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirməlidirlər.

Vergi orqanı əməkdaşları barəsində Daxili təhlükəsizlik Baş İdarəsinə daxil olmuş şikayətlərin məzmunu, onların yaranma səbəbləri barədə təlim iştirakçılarına məlumat verilmiş, şikayətlərin yaranma səbəbinin və şəraitinin aradan qaldırılması istiqamətində görülməli olan işlər diqqətə çatdırılmışdır.

Baş idarə rəisinin birinci müavini Haley Bəkirov daxili nəzarət sistemi barədə ümumi məlumat verərək, bu sistemin vergi orqanı əməkdaşlarının fəaliyyətində əmək, icra və xidmət intizamına çevik nəzarət mexanizmi kimi əhəmiyyətindən danışmışdır. O, məsul şəxslərin daxili nəzarət sisteminin tətbiqi istiqamətləri üzrə nəzarət hərəkətlərinin nəticələri barədə aidiyyəti məlumatların AVİS-in müvafiq moduluna vaxtında, düzgün və tam işləmələri, məsul şəxslərin vergi orqanının rəhbərinə əməkdaşların hərəkətləri (hərəkətsizliyi) barədə yalan və təhrif olunmuş, mənbəyi bəlli olmayan, yaxud öz şəxsi marağı baxımından əməkdaşın vəziyyətini pisləşdirən məlumatlar verilməsinin yolverilməz olduğunu bildirmişdir. Qeyd edilmişdir ki, daxili nəzarət sisteminə məsul şəxslər vergi əməkdaşının vergi orqanının nüfuzuna xələl gətirən hərəkətləri (hərəkətsizliyi) barədə məlumat verən vergi ödəyicisinin hüquqlarını və qanuni mənafelərini gözləməyə və müdafiə etməyə borcludur.

Baş idarənin şöbə rəisi Şahin Səfərov iştirakçılara «Vergi orqanlarında daxili nəzarət sisteminin təşkili» Qaydaları, daxili nəzarət sistemi ilə tənzimlənən münasibətlərin iştirakçıları, daxili nəzarət sisteminin tətbiqi və istiqamətləri, bu sahədə nəzarət hərəkətlərinin rəsmiləşdirilməsi, daxili nəzarət sisteminə məsul şəxslərin vəzifə və hüquqları, həmçinin onların məsuliyyəti məsələləri barədə ətraflı məlumat vermiş və təlim iştirakçılarının suallarını cavablandırmışdır.

Baş idarənin baş dövlət vergi müfəttişi Arif Əsədov 2013-cü ildə və 2014-cü ilin 9 ayında vergi orqanları üzrə daxili nəzarət sisteminin hesabat göstəriciləri, daxili nəzarət hərəkətlərinin keçirilməsi və rəsmiləşdirilməsi zamanı yol verilmiş nöqsan və pozuntular barədə aparılan təhlilləri diqqətə çatdırmışdır.

Təlimin sonunda mövzu ilə bağlı müzakirələr aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

# 2015-ci ildə azad biznesin inkişaf hədəfləri

***Prezident İlham Əliyevin bu günlərdə imzaladığı «Sahibkarlıq fəaliyyəti haqqında» Qanunda dəyişikliklər edilməsi barədə sərəncama əsasən, sahibkarlıq sektorunda bir sıra mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Yaxın 3 ay ərzində hazırlanacaq təkliflərin qəbul olunmasından sonra sahibkarlıq sahəsində aparılan yoxlamaların sayının azaldılması və asanlaşdırılması, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı yeni qaydalar tətbiq olunacaq. 2015-ci ilin əvvəllərindən qüvvəyə minəcək qaydalar sahibkarlıqla məşğul olan insanların fəaliyyətinə geniş şəraitin yaradılması, onlara maneçilik törədən bütün məsələlərin həlli ilə bağlı təsirli və operativ tədbirlərin görülməsinə imkan verəcək.***

***Rüsum və ödənişlər elektron qaydada həyata keçiriləcək***

İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Zaur Qasımovun fikrincə, nəzərdə tutulan əlavə tədbirlər birbaşa sahibkarlığın etibarlı müdafiəsi, azad biznesin inkişafı üçün geniş fəaliyyət meydanının yaradılması, dövlət-biznes münasibətlərinin yeni tələblərə uyğun qurulmasına xidmət edir.

Yeni dəyişikliklərə əsasən, sahibkarlıq sektorunda qeydiyyat, yoxlamaların və digər əməliyyatların, eləcə də ödənişlərin elektronlaşdırılması da nəzərdə tutulub. Yoxlamalar haqqında tam və operativ məlumatın əldə olunması məqsədilə bu sahədə vahid məlumat reyestrinin aparılması, elektron uçot sistemi, digər e-xidmətlər bu tədbirlər sırasındadır. Bu proseslərdə «ASAN xidmət» modelinin tətbiqinin gücləndirilməsi, hər növ ödənişlərin, rüsumların həmin mərkəzlər vasitəsilə həyata keçirilməsi, regionlarda «ASAN ödəniş» şəbəkəsinin genişləndirilməsi planlaşdırılır. Sahibkarların icazə və lisenziyalara, digər razılıqlara görə fəaliyyətləri üzrə ödədikləri rüsumların elektronlaşdırılması və qeyd olunan sistemə inteqrasiyası, e-xidmətlərdən istifadə imkanlarının artırılması da bu tədbirlərə daxildir.

2015-ci ildə təsirli addımların atılması nəzərdə tutulan istiqamətlərə daxili bazarda inhisarçılıqla mübarizə tədbirlərinin gücləndirilməsi, biznes mühitinin sağlamlaşdırılması, istehsalın keyfiyyətinin yüksəldilməsi, dünya bazarlarında rəqabətqabiliyyətli məhsul ixracının artırılması kimi hədəflər də daxildir.

Yoxlamaların sayının azaldılması və sahibkarların maraqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi sahibkarlıq sektorunda bürokratik əngəllərin və korrupsiyaya şərait yaradan halların aradan qalxmasına səbəb olacaq.

***Elektron qeydiyyatın prosedur və müddətləri daha da azaldılacaq***

Sahibkarlıq mühitinin yaxşılaşdırılması tədbirləri çərçivəsində biznesə başlama prosedurlarının daha da sədələşdirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi də prioritet məsələlərdir. Bu məqsədlə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayının azaldılması, lisenziya müddətinin yenidən uzadılması, lisenziya verilməsi prosesinin sadələşdirilməsi nəzərdə tutulur. Fiziki və hüquqi şəxslərin qeydiyyatının elektron qaydada aparılması mexanizmlərinin təkmilləşdirilməsi, tələb olunan sənədlərin elektron formada təqdim edilməsi prosedurunun asanlaşdırılması, həmçinin dövlət rüsumlarının və xidmət haqlarının ödənişinin də onlayn rejimdə həyata keçirilməsi sisteminin gücləndirilməsi başlıca məqsədlərdəndir.

Yeri gəlmişkən, Vergilər Nazirliyi də bu istiqamətdə işləri davam etdirir. Nazirlik müvafiq dövlət qurumları ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin «bir pəncərə» prinsipinə uyğun elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi sahəsində təkliflər hazırlayır.

***Bank Məcəlləsi hazırlanacaq***

Dövlətin sahibkarlıq sahəsində siyasətinin əsas istiqamətlərindən biri özəl biznesə maliyyə təminatının yaxşılaşdırılması və kreditləşmənin asanlaşdırılması olduğu üçün maliyyələşmə ilə bağlı mühüm dəyişikliklər gözlənilir. Sahibkarlara kredit verilməsinin təkmilləşdirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) səlahiyyətlərinin artırılması, bank-kredit-sahibkar münasibətlərinin yeni əsaslara uyğun qurulması nəzərdə tutulur. Xüsusilə də regional sahibkarlığa güzəştli kreditlərin verilməsində bankların fəallığının artırılması, kreditlərin sığortalanması mexanizminin formalaşdırılması üçün bəzi normativ aktlara və qanunlara əlavə və dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunur.

Maliyyə-kredit və bank institutlarının biznes sektoruna dəstəyinin artırılması, onlara nəzarətin gücləndirilməsi və fəaliyyətlərinin vahid qanunvericilik əsasında tənzimlənməsi üçün Bank Məcəlləsi hazırlanacaq. Mərkəzi Bankın baş direktoru Xaqani Abdullayev bildirib ki, məcəllənin layihəsinin 6 ay müddətində tamamlanması planlaşdırılır. Hazırda ölkədə bankların və kredit təşkilatlarının fəaliyyətini tənzimləyən «Banklar haqqında», «Maliyyə-kredit təşkilatları haqqında», «Bank olmayan kredit təşkilatları haqqında», «Mərkəzi Bank haqqında» qanunlar və digər qanunvericilik aktlarının qüvvədə olmasına baxmayaraq, son illər maliyyə sektorunda baş verən mühüm dəyişikliklər, iqtisadiyyatın qeyri-neft sektorunun böyüməsi və bu sahənin maliyyə ehtiyacının artması, eləcə də digər iqtisadi reallıqlar yeni məcəllənin hazırlanmasını labüdləşdirir. Bank sahəsi üzrə mütəxəssis Oqtay Məmmədovun fikrincə, Bank Məcəlləsinin qəbul olunması bank bazarına nəzarət sisteminin gücləndirilməsinə, kreditlərin verilməsi sahəsində qaydaların sadələşməsinə, kredir riskləri ilə bağlı problemlərin həllinə mühüm təsir göstərə bilər. Bundan əlavə, bank sektorunda baş verən dəyişikliklər və iqtisadi inkişafın tələblərindən doğan yeniliklərlə bağlı gələcəkdə bir sıra qanunlara dəyişikliklər edildikdə məcəllədə də müvafiq dəyişikliklərin aparılması həyata keçiriləcək. Bank Məcəlləsi bank bazarında iqtisadi təşəbbüslərin və fəallığın artmasında mühüm rol oynayacaq. Sənəd bankların iqtisadiyyatın şaxələnməsində rolunun artırılması, o cümlədən qeyri-neft iqtisadiyyatının sürətli inkişafı üçün zəruri dəstəyin verilməsi, regionların kredit resurslarına və maliyyə xidmətlərinə çıxış imkanlarının sağlam əsasda genişləndirilməsi və s. kimi hədəflərin reallaşmasına şərait yaradan mühüm sənəd olacaq.

**Elbrus CƏFƏRLİ**

# Güzəştli maliyyələşmə sahibkarlığın inkişafına təkan verir



*İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu sahibkarlıq subyektlərinin iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən investisiya layihələrinin maliyyələşdirilməsini davam etdirir, ölkədə sahibkarlığın inkişafına öz töhfəsini verir. Müsahibimiz Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayevdir.*

***- Şirzad müəllim, rəhbərlik etdiyiniz fondun investisiya layihələri iqtisadiyyatın hansı sahələrini əhatə edir?***

- Fond sahibkarlığın inkişafına güzəştli kreditlərlə maliyyə təminatı yaradaraq sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə qurulmasında və iş adamlarının güzəştli kredit almaq imkanlarının genişləndirilməsində yaxından iştirak edir. Dövlətin güzəştli kreditləri ərzaq təhlükəsizliyinin təmin olunması, ixrac potensialının və regionların investisiya cəlbediciliyinin artırılması, əsas qida məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə aqrar-sənaye kompleksi və digər sənaye sahələrində, eləcə də kiçik sahibkarlığın inkişafı istiqamətində investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına indiyədək 24000-dək sahibkara 1,5 milyard manat güzəştli kredit verilmiş, bu kreditlər hesabına 126 mindən çox yeni iş yerinin yaradılması mümkün olmuşdur. Güzəştli kreditlərin 67,3%-i aqrar sektorun, 32,7%-i müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilmişdir.

Fond tərəfindən son illər yeni texnologiyaların tətbiqinə əsaslanan ümumi dəyəri 1,9 milyard manat olan 332 investisiya layihəsinin maliyyələşdirilməsinə 894,6 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələrdən 253-nün icrası başa çatdırılmış, digər 79 müəssisəyə aid tikinti-quraşdırma işləri davam etdirilir. Müasir texnologiyaların tətbiqi nəticəsində kənd təsərrüfatı və qida sənayesi sahəsində müasir istehsal və infrastruktur kompleksləri yaradılmış, bir sıra ərzaq məhsullarının, o cümlədən quş əti, yumurta, ət və ət məhsulları, süd məhsullarının istehsalı artmış, özünütəminetmə səviyyəsi yüksəlmiş, ixracın həcmi artmış və bəzi məhsulların məşhur brendlərin adı ilə istehsalına başlanılmışdır.

Azərbaycanda uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, son illər fond tərəfindən 119 sənaye müəssisəsinin maliyyələşdirilməsinə 382,6 milyon manat güzəştli kredit verilmişdir. Bu müəssisələrdən 88-i istifadəyə verilmiş, digər 31 müəssisə üzrə isə tikinti-quraşdırma işləri davam etdirilir.

Sahibkarların maarifləndirilməsi və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi məqsədilə fond tərəfindən regionlarda və Bakı şəhərinin qəsəbələrində mütəmadi olaraq işgüzar forumlar keçirilir. Forumlar çərçivəsində respublikanın bütün şəhər və rayonları əhatə olunmaqla iqtisadi potensial təhlil olunur, prioritet istiqamətlər müəyyənləşdirilir, beynəlxalq təcrübə öyrənilir, prioritet sahələr üzrə nümunəvi investisiya layihələri hazırlanaraq sahibkarlara təqdim olunur.

***- Sahibkarlara güzəştli kreditlərin verilməsi mexanizmi necə işləyir?***

- «Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları»na əsasən, güzəştli kredit almaq üçün sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatlarına müraciət edirlər. Müvəkkil kredit təşkilatları müraciətləri qeydiyyata alır və sahibkarlara müraciətin qeydiyyata alınmasını təsdiq edən sənəd təqdim edir. Müvəkkil kredit təşkilatları onlar üçün müəyyən edilmiş limit çərçivəsində 10 bank günündən gec olmayaraq öz biznes maraqları və fondun müəyyən etdiyi investisiya layihələrinin tərtib olunmasına dair minimal tələblər və qiymətləndirmə meyarlarına əsaslanaraq investisiya layihələrini təhlil edir. Müsbət qiymətləndirilən layihələrə dair məlumatlar və sənədlər fonda təqdim olunur. İnvestisiya layihəsi mənfi qiymətləndirilən sahibkarlıq subyektlərinə isə müvəkkil kredit təşkilatları tərəfindən 3 bank günü müddətində əsaslandırılmış imtina məktubu verilir. Fond 10 bank günü müddətində güzəştli qaydada maliyyələşdirilmək üçün təqdim olunmuş layihələri ekpertizadan keçirir və kiçik həcmli kreditlər istisna olmaqla, müvəkkil kredit təşkilatlarının təqdim etdiyi investisiya layihələrinin ilkin monitorinqini keçirir. Ekspertizanın nəticəsindən asılı olaraq, fond müraciətlərin təmin olunması və ya onlardan imtina edilməsi barədə müvəkkil kredit təşkilatına rəsmi məlumat verir. Sahibkarlıq subyektləri ilə kredit müqaviləsi bağlandıqdan sonra müvəkkil kredit təşkilatları tərəfindən kredit vəsaitinin ayrılması barədə fonda sifariş göndərilir. Fond 3 bank günü ərzində vəsaitlərin müvəkkil kredit təşkilatlarına ayrılmasını təmin edir. Ayrılmış vəsait həmin təşkilatın müxbir hesabına daxil olduqdan sonra 2 bank günü ərzində sahibkarlıq subyektinin hesabına köçürülür və bu barədə fonda və sahibkarlıq subyektinə məlumat verilir.

Qanunvericiliyə uyğun olaraq, Sahibkarlığa Kömək Milli Fondu yalnız müvəkkil kredit təşkilatlarının müsbət qiymətləndirdiyi layihələri ekspertizadan keçirə və maliyyələşdirə bilər.

Bir məsələni xüsusilə qeyd etmək istərdim ki, Sahibkarlığa Kömək Milli Fondu ilə müvəkkil kredit təşkilatları arasında investisiya layihələrinin maliyyələşdirilməsi, sahibkarların müraciətlərinin qeydə alınması və idarə edilməsi prosesinin avtomatlaşdırılmasına dair «İnvestisiya layihələrinin maliyyələşdirilməsi ilə əlaqədar elektron idarəetmə sistemi» yaradılmışdır. Sahibkarlar tələb olunan məlumatları daxil etdikdən və sənədləri sistemə yüklədikdən sonra elektron müraciət seçilmiş müvəkkil kredit təşkilatına göndərilir və sistem sahibkara bu barədə bildiriş təqdim edir. Müvəkkil kredit təşkilatında investisiya layihəsinin qiymətləndirilməsi ilə əlaqədar bütün proseslər elektron sistem vasitəsi ilə yerinə yetirilir və müsbət qiymətləndirilmiş layihələrin maliyyələşdirməsi məqsədi ilə elektron formada Sahibkarlığa Kömək Milli Fonduna göndərilir. İnvestisiya layihələri Sahibkarlığa Kömək Milli Fondunda elektron sistemdə qeydiyyata alınır, layihə ekspertiza edildikdən sonra maliyyələşdirilməsinə qərar verildiyi halda tələb olunan kredit vəsaiti müvəkkil kredit təşkilatının elektron sifarişi əsasında onun bank hesabına köçürülür. Müvəkkil kredit təşkilatı tərəfindən isə həmin vəsaitin sahibkarın hesabına köçürülməsi təmin olunur.

*Azərbaycanda əhalinin işgüzar fəaliyyətinin artırılması, sərbəst iqtisadiyyatın inkişafı istiqamətində geniş vüsət almış dövlət dəstəyi tədbirləri nəticəsində son 10 ildə iqtisadiyyat 3 dəfədən çox, sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmış, məşğulluqda özəl sektorun payı 73,9%-ə, vergi daxilolmalarında 72,4%-ə yüksəlmiş, ÜDM-də özəl sektorun xüsusi çəkisi 80%-i ötmüşdür*

***- Sahibkar-müvəkkil kredit təşkilatı münasibətlərinin tənzimlənməsi istiqamətində hansı işlər görülür?***

- Sahibkarlığa Kömək Milli Fondu dövlətin güzəştli kreditlərinin sahibkarlıq subyektlərinə çatdırılması üçün 47 müvəkkil kredit təşkilatı, o cümlədən 30 bank, 2 bank olmayan kredit təşkilatı və 15 kredit ittifaqı ilə əməkdaşlıq edir.

Fond 2014-cü ilin əvvəlindən regionlarda və Bakı şəhərinin qəsəbələrində sahibkarlığın inkişafının stimullaşdırılması istiqamətində həyata keçidiyi tədbirləri sahibkar-müvəkkil kredit təşkilatı müstəvisində keçirməyə başlamışdır. Bu işgüzar forumların əsas mahiyyəti güzəştli kreditlərin verilməsi mexanizminin izah olunması, regionlarda həyata keçirilməsi məqsədəuyğun hesab olunan sahələr üzrə nümunəvi layihələrin sahibkarlara təqdim edilməsi, onlarla müvəkkil kredit təşkilatları arasında qarşılıqlı inamın artırılması, sahibkar-müvəkkil kredit təşkilatı münasibətlərinin möhkəmləndirilməsi, investisiya layihələrinin maliyyələşdirilməsi üzrə qarşılıqlı dialoq əsasında işgüzar münasibətlərin yaradılması, eləcə də potensial sahibkarların üzə çıxarılması və nəticədə daha çox kiçik və orta həcmli layihələrin maliyyələşdirilməsidir.

***- Ümumilikdə, sahibkarlıq subyektlərinin maliyyələşməsini rəqəmlərlə necə səciyyələndirmək mümkündür?***

- 2014-cü ilin 9 ayı ərzində Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə 4218 sahibkarlıq subyektinə 237,3 milyon manat həcmində güzəştli dövlət kreditləri verilmiş və bu kreditlər hesabına 9427 yeni iş yerinin yaradılması imkanı yaranmışdır.

Güzəştli kreditlərin 83,7%-i aqrar sektorun, 16,3%-i müxtəlif sənaye və digər sahələrin inkişafı məqsədilə verilmişdir. Verilmiş kreditlərin 78%-i respublikanın regionlarının, 22%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür.

Əsasən, əhalinin həssas qruplarının, o cümlədən məcburi köçkün, əlil, gənc və qadın sahibkarların, eləcə də aztəminatlı ailələrin kiçik həcmli kreditlərdən maksimum bəhrələnərək özlərinə biznes imkanları yaratmaları daim diqqət mərkəzində saxlanılır. 198 məcburi köçkün sahibkara 6,7 mln. manat, 498 qadın sahibkara 7,3 mln. manat və 879 gənc sahibkara 34,3 mln. manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına müvafiq olaraq 398, 994 və 1736 yeni iş yerinin açılmasına imkan yaranmışdır.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə maliyyələşdirilmiş layihələrin sayı 19,6% artmışdır.

2014-cü ilin 9 ayı ərzində kiçik həcmli 4132 layihəyə 49.1 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 7172 yeni iş yerinin yaradılması təmin olunacaqdır. 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə kiçik həcmli layihələrin sayı 19,7%, məbləği isə 17,3% artmışdır. Bu kreditlər hesabına yeni yaradılan iş yerlərinin sayı da 17,3% artmışdır.

Bu ilin 9 ayında aqrar sektorun inkişafı ilə bağlı 4067 layihəyə 198,6 milyon manat güzəştli dövlət kreditləri verilmişdir. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə maliyyələşdirilən layihələrin sayının 20,3%, məbləğinin isə 26% artması deməkdir.

Yeni texnologiyalara əsaslanan investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi çərçivəsində 56 layihə maliyyələşdirilmişdir.

Dövlətin güzəştli kreditləri hesabına rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən kiçik və orta həcmli qeyri-neft sənaye müəssisələrinin yaradılması respublikanın müxtəlif yeyinti və digər sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ölkənin ixrac potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir.

Bundan əlavə, müasir texnologiyaların tətbiqinə əsaslanan investisiya layihələrinin reallaşdırılması regionlarda məşğulluğun təmin edilməsinə, regionların investisiya cəlbediciliyinin artırılmasına, digər sahələrin inkişafının stimullaşdırılmasına, eləcə də iqtisadiyyatın strukturunun şaxələndirilməsinə şərait yaradır.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanın maliyyə sahəsində mühasibatlıq üzrə sertifikatlaşdırma modeli qurulub

Maliyyə Nazirliyi və Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA) birlikdə maliyyə sahəsində mühasibatlıq üzrə sertifikatlaşdırma modeli qurublar.

Noyabrın 18-də Bakıda keçirilən Risk Menecerlərinin Forumunun açılış mərasimində çıxış edən ARPA-nın icraçı direktoru Teymur Sultanov məlumat verib ki, bu sertifikatlaşdırma modelinin 2015-ci ilin yanvar ayından tətbiqi nəzərdə tutulur. İcraçı direktor riskin idarə edilməsinin müasir maliyyə sektorunda oynadığı önəmli roldan da bəhs edərək, forumun bu sahədə ən son yeniliklərin, strategiyalar, metodlar, beynəlxalq müsbət təcrübənin tətbiqi, o cümlədən uğurlu təcrübələrin müzakirəsi yolu ilə nəticələrin əldə edilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycan Mərkəzi Bankın (AMB) Potensial siyasət və metodologiya departamenti direktorunun müavini Rüstəm Tahirov sözlərinə görə, AMB həm qlobal, həm də yerli bazardakı inkişafa uyğun olaraq özünün metodoloji bazasını əhəmiyyətli dərəcədə yeniləyib. Bu yeniliklər bankların idarəetmə orqanlarının, müşahidə şurasının, riks komitəsinin risklərin idarəolunmasındakı rolunu artırır. «Banklarda risk əsaslı kompensasiya sisteminin formalaşması və bankın ümumi strategiyası ilə uzlaşdırılması əsas yeniliklər sırasındadır», - deyən R.Tahirov qeyd edib ki, risklərin idarə olunmasını bir proqramla başa çatdırmaq mümkün deyil. Bu proses davamlı şəkildə yenilənməlidir: «Hesab edirəm ki, dərsliklərin, peşəkar kadrların hazırlanması, təcrübələrin paylaşılması bu sahədə irəliləyişə imkan verəcək».

Forumun sonunda «İlin risk meneceri» mükafatının təqdimat mərasimi keçirilib. Bir günlük forumda ölkəmizdə fəaliyyət göstərən bankların nümayəndələri, eləcə də müxtəlif təşkilatları təmsil edən aparıcı ekspertlər iştirak ediblər.

Qeyd edək ki, 2009-cu ildə təsis edilən ARPA ölkədə risk menecmentini inkişaf etdirmək məqsədilə yaradılıb. Əsas prinsipi risk peşəkarlarını bir araya toplayaraq ən müasir və səmərəli təcrübələrin Azərbaycanda tətbiq edilməsidir. Hazırda Assosiasiyanın 1000-dən çox fiziki, 30-dan çox korporativ üzvü var.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Dualistik vergi modeli

«Vergi dualizmi» həm verginin hər kəsin xeyrinə könüllü əvəzsiz ödəniş olmasını, həm də praktikada həmin ödənişin kəmiyyətini (məbləğini) müəyyən edir, yəni hansı formada, nə vaxt və kimdən nə qədər vəsait tutulmasını göstərir.

1980-ci illərdən bəri dünyada baş verən liberallaşma, elm və kommunikasiya texnologiyalarındakı sürətli inkişaf, ticarət və investisiyanın dövriyyəsi önündəki problemlərin qaldırılması qloballaşma prosesini sürətləndirmişdir. Qloballaşma vergi sistemləri baxımından həm hökumət vergi institutlarının vergitutma səriştələrində aşınmaya yol açmış, həm də vergi bazasının vergi institutlarının nəzarəti xaricində yerdəyişməsinə səbəb olmuşdur. Vergi bazasının qurulması və təməl ictimai öhdəliklərinin qarşılanması üçün ən vacib ünsür olan vergi gəlirlərini itirməmək məqsədilə ölkələr dualistik gəlir vergisi modelini inkişaf etdirmişlər.

Dualistik gəlir vergisi əmək gəlirləri üzərinə artan dərəcəli vergi tətbiq etməklə kapital gəlirinə nisbətən aşağı vergi dərəcəsi nəzərdə tutan modeldir. Dualistik vergi modeli vergi gəlirlərinin iki qrup vergi üzrə baza bölgüsünü nəzərdə tutur:

1. Əməkdən (sosial sığorta fondlarından əməkhaqqı, əlavə faydalar, pensiyalar və müxtəlif ödəmələr) gəlirlər;
2. Kapitaldan (faizlər, dividendlər, icarə haqqı, uzunmüddətli istifadə, lisenziya ödənişindən və kapitalın artımından gələn gəlir) gəlirlər.

Dualistik gəlir vergisinin tətbiqi bir sıra nəzəri və praktik arqumentlərlə əsaslandırılır. Bu arqumentlər, dualistik gəlir vergisi modelinə əsasən, ölkələrarası kapital bazarlarında rəqabətliliyi gücləndirir və effektivliyi artırır. Xüsusilə qlobal gəlir vergisi sistemində kapital gəlirlərini reallaşdırma əsasında vergitutmanın çətinliyi, amortizasiya rejiminin mürəkkəbliyi, real və nominal gəlir arasında əlaqənin qurulması kimi çatışmazlıqların aradan qaldırılması da dualistik gəlir vergisi modelinin tətbiqini təşviq edir.

Kapitalın sürətinin yüksək olduğu bugünkü bazarlarda rəqabətə davamlı olmaq ictimai öhdəliklər baxımından olduqca vacibdir. Dualistik gəlir vergisi kapitalın sürətli axını zamanında firmaların investisiya və maliyyə qərarlarını tərəfsiz əldə etmələri, yəni kapitalın vergiqoymadan əldə olunan gəlir fərqliliyi ilə bağlı olaraq yaranan əngəlləri aradan qaldırır. Lakin bu modellə bağlı tətbiqlər araşdırıldıqda kiçik müəssisələr üçün bəzi çətinliklərin yarandığı da üzə çıxır. Əmək gəlirinə kapital gəlirindən daha yüksək vergi dərəcəsinin qoyulması səbəbi ilə böyük müəssisələr əmək gəlirinin bir qismini kapital gəliri kimi göstərməklə vergidən yayına bilərlər. Bu halda vergitutmada horizontal ədalət prinsipinə zidd hərəkət edilməsi problemi ortaya çıxır. Bu gün optimal vergiqoyma nəzəriyyəsi baxımından bir qiymətləndirmə aparılarsa, dualistik gəlir vergisi modelinin tətbiqinin qlobal gəlir vergisi modelinə bir alternativ olduğunu asanlıqla görə bilərik. Bu məqamda dualistik gəlir vergisinin effektivlik və ədalətlilik arasında seçim nəticəsi olduğu da qeyd edilməlidir.

*Vergi bazasının qurulması və təməl ictimai öhdəliklərinin qarşılanması üçün ən vacib ünsür olan vergi gəlirlərini itirməmək məqsədilə ölkələr dualistik gəlir vergisi modelini inkişaf etdirmişlər*

Qlobal effektivlik baxımından pul və kapital axınının sürətli olduğu bir zamanda dualistik vergi modeli qlobal vergi modeli ilə müqayisədə ikinci yerdə dayanır. Ona görə ki, effektivlik məqsədi ilə əmək və kapital gəlirlərinin vergiyə cəlb olunma baxımından ayrılması və əmək gəlirlərinə daha yüksək vergi dərəcələrinin qoyulması vergi ədaləti prinsipinə ziddir. Əlavə olaraq, qlobal gəlir vergisi modeli çərçivəsində vergiyə cəlb oluna bilən bütün gəlir ünsürlərinin nəzərə alınması vergi bazasının genişləndirilməsinə imkan verir. Ona görə də bu model effektivlik və ədalət arasındakı seçimdə məhdudlaşdırmanın qarşısının alınmasına şərait yaradacaqdır. Çünki vergi bazasının geniş olduğu ölçüdə fəaliyyətin saxlana biləcəyi daha çox vergitoplama imkanı olur.

Bu günün qlobal həqiqətləri ölkələri vergiqoymada ədalət və effektivlik prinsipləri arasında seçim etməyə məcbur edir. Ancaq effektivliyə ədalətə nisbətdə üstünlük verilməsi vergi sisteminə birtərəfli yanaşma olardı. Məsələn, «rifah dövlətlərinin» - Skandinaviya ölkələrinin tətbiq etdikləri dualistik gəlir vergisi modeli ədalətlilik və effektivlik arasında yaxşı bir tarazlıq kimi qiymətləndirilə bilər. Lakin bu vəziyyət yalnız gəlir və sərvətin bərabər paylandığı və onların arasında yüksək əlaqələrin olduğu şəraitdə etibarlıdır.

Lakin rifah dövləti olmaq qeyri-bərabər, ədalətsiz vergi modelinin tətbiqinə əsas verə bilməz. Dövlətin rifahının dayanıqlığını təmin edə bilmək üçün əmək gəlirlərinə daha çox vergi qoyulması vergi sisteminin daha ədalətsiz hal almasına səbəb ola bilər. Misal üçün: dualistik gəlir vergisi modelini tətbiq edən Norveç kimi. Burada əmək gəlirlərinə daha yüksək vergi dərəcəsi tətbiq edilmişdir. Nəticədə əmək gəlirləri üzərindəki vergi yükü ağırlaşmış, vergi ədalətsizliyi daha da artmışdır.



Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Ezamiyyə xərcləri

**Ezamiyyə xərclərinin məbləği işçinin vergiyə cəlb olunan gəlirinə aiddirmi?**

Vergi Məcəlləsinin 98.3-cü maddəsinə əsasən, faktiki ezamiyyə xərclərinin, habelə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin və ya digər işgüzar xərclərin əvəzinin ödənilməsi muzdlu işlə əlaqədar alınan gəlirə daxil deyildir.

Vergi Məcəlləsinin 102.1.14.1-ci maddəsinə əsasən, iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği gəlir vergisindən azaddır.

Vergi Məcəlləsinin 102.1.14.2-ci maddəsinə əsasən, Nazirlər Kabinetinin qərarı ilə müəyyən edilmiş ezamiyyə xərclərinin məbləğləri gəlir vergisindən azaddır. Nazirlər Kabinetinin «Ezamiyyə xərclərinin normaları haqqında» qərarına əsasən, ölkə ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 65 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 50 manat, respublika tabeli digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 45 manat müəyyən edilmişdir.

Həmin qərara əsasən, daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 10 manat əlavə vəsait verilir.

Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda ezamiyyə xərcləri onlara bu məqsəd üçün büdcədə nəzərdə tutulan vəsaitlər dairəsində, digər təşkilatlarda isə onların öz vəsaitləri hesabına ödənilir.

Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlar istisna olmaqla, digər təşkilatlar ezamiyyə xərclərinin ödənilməsi üçün öz sərəncamlarında qalan mənfəət hesabına müəyyən edilmiş normalardan əlavə vəsait ayıra bilərlər.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin qərarı ilə təsdiq edilmiş «İşçilərin ezamiyyə Qaydaları»na əsasən, ezamiyyə xərclərinə gündəlik, mehmanxana, rabitə, şəhərdaxili nəqliyyat və digər xidmətlərlə bağlı xərclər daxildir.

Gündəlik xərc - işçiyə ezamiyyətdə olduğu müddətdə hər təqvim günü üçün (yolda olduğu müddət nəzərə alınmaqla) ödənilir.

Mehmanxana xərcləri - işçiyə ezamiyyətdə olduğu müddətdə hər təqvim günü üçün (yolda olduğu müddət nəzərə alınmadan) ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsi daxilində müvafiq təsdiqedici sənədlər əsasında, təsdiqedici sənədlər təqdim edilmədiyi hallarda isə ezamiyyə xərclərinin 1 günlük normasının mehmanxana xərcləri üçün müəyyən edilmiş hissəsinin 50%-i miqdarında ödənilir.

Nəqliyyat xərclərinə - ezamolunma yerinə getmək və qayıtmaq, ölkədaxili nəqliyyat xərcləri (taksidən istifadə istisna olmaqla, yaşayış məntəqəsindən kənarda yerləşən vağzala, limana (bərəyə), təyyarə meydanına və ölkə ərazisində digər məntəqələrə getmək) daxildir və bu xərclər təqdim edilən sənədlər əsasında ödənilir.

Dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 4 may tarixli 75 nömrəli Qərarı ilə tənzimlənir. Həmin Qərarın əlavəsində gəmilərin qrupları nəzərə alınmaqla müvafiq vəzifələr üzrə sutkalıq ödənişlərin məbləği müəyyən edilmişdir.

# Bələdiyyələrin vergi informasiya sistemi yaradılır

## Vergilər Nazirliyinin həyata keçirdiyi pilot layihənin nəticələri uğurludur

*Azərbaycan Respublikası Prezidentinin «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» Qanunun tətbiq edilməsi barədə» 4 aprel 2002-ci il tarixli fərmanına əsasən, bələdiyyələrə yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, vergi qanunvericiliyinə düzgün riayət olunmasında metodiki rəhbərliyin həyata keçirilməsi Vergilər Nazirliyinə həvalə edilib.*

Vergilər Nazirliyi bu fərmandan və digər qanunvericilik aktlarından irəli gələn məsələlərin həlli üçün bir sıra metodiki vəsaitlər hazırlamış, yerli özünüidarəetmə orqanlarında elekton xidmətlərin tətbiqi, yerli vergi və ödənişlərin hesablanması və ödənilməsi sahəsində mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün tədbirlər həyata keçirir. Vergilər nazirinin müvafiq əmrilə «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması ilə bağlı metodiki vəsait» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu ilə bağlı Metodiki vəsait» təsdiqlənib.

Vergilər Nazirliyinin ayrı-ayrı idarələri, aidiyyəti struktur vahidləri və bölmələri 2014-cü ildə Bakı şəhərinin Binəqədi rayonunun beş bələdiyyəsində, Abşeron rayonunun Saray və Şəmkir rayonunun Şəmkir bələdiyyələrində vergi ödəyiciləri olan fiziki şəxslərin və yerli (bələdiyyə) vergi və ödənişlərin elektron uçotunun tətbiqi üzrə pilot layihə həyata keçirilər. Layihənin icrasına 2014-cü ilin may ayından başlanılıb və müəyyən nəticələr əldə olunub.

Binəqədi rayonu M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov bildirir ki, yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, vergi qanunvericiliyinə düzgün riayət edilməsində Vergilər Nazirliyinin köməyini hər zaman hiss ediblər: «Hazırda bələdiyyələrin fəaliyyətinin müasirləşdirilməsinə, xüsusilə də vergi və rüsumların toplanması işinin təkmilləşdirilməsinə obyektiv zərurət yaranmışdır. Vergilər Nazirliyinin bu zərurətdən çıxış edərək «Bələdiyyə vergi informasiya sistemi» (BVİS) layihəsinin icrasına başlaması yerinə düşüb. Çünki bələdiyyələrin vergi ödəyicilərinin elektron bazasının yaradılmasına maliyyə imkanı çatmır. Ona görə də Vergilər Nazirliyi tərəfindən həyata keçirilən bu pilot layihəni çox yüksək qiymətləndirirəm. Respublikanın bütün bələdiyyələrinin bu sistemə keçirilməsi vacibdir. Çünki əvvəllər vergi ödəyicilərı olan fiziki şəxslərdən onların mülkiyyətlərinə dair sənədlərin alınmasında çoxlu çətinliklər vardısa, vergi informasiya sistemi fəaliyyətə başladıqdan sonra bu problemlər də aradan qalxır. Bununla vergi ödəyicilərinin təkrar uçota alınması halları da tamamilə aradan qaldırılmış olacaq».

Digər önəmli məqamın güzəşt hüququ olan vətəndaşlarla bağlı olduğunu vurğulayan bələdiyyə sədri müxtəlif ərazilərdə dəşinmaz əmlakı olan vətəndaşın güzəşt hüququnu təsdiq edən sənədi bir neçə bələdiyyəyə təqdim etməklə paralel şəkildə güzəştlər əldə etmiş olduğunu deyir: «Vahid elektron baza yaradıldıqdan sonra vətəndaşın güzəşt hüququnun hansı bələdiyyə ərazisində və hansı əmlaka tətbiq edilməsi barədə məlumatı asanlıqla əldə etmək mümkün olacaq».




Binəqədi qəsəbə bələdiyyəsinin sədri Tamerlan Qurbanın sözlərinə görə, yerli özünüidarəetmə orqanlarına dövlət qayğısı çərçivəsində Vergilər Nazirliyinin göstərdiyi metodiki yardım, seminar və treninqlər xüsusi əhəmiyyət kəsb edir: «Vergilər Nazirliyinin bələdiyyə vergilərinin ödəyiciləri olan fiziki şəxslərin və yerli vergi və ödənişlərin elektron uçotunun tətbiqi üzrə pilot layihəsi də bu sahədə işlərin uğurlu təşkilinə təkan verdi. Binəqədi qəsəbə bələdiyyəsinin adından tam əminliklə deyə bilərəm ki, pilot layihə çərçivəsində vergilər şöbəsində uçot məlumatlarının böyük əksəriyyəti elektronlaşdırılmışdır. Sistem elə qurulmuşdur ki, məlumatlara yersiz müdaxilələr mümkün deyil. Bu, öz növbəsində, bələdiyyə büdcəsində şəffaflığın yaranmasına müsbət təsirini göstərir. Əvvəllər vergi müfəttişləri tədiyyə bildirişlərinin hesablanmasında və onların vətəndaşlara çatdırılmasında müəyyən çətinliklərlə qarşılaşırdırlarsa, indi bu cür problemler yoxdur. Yeni proqram təminatı tədiyyələrin hesablanmasında vergi müfəttişlərinin işini asanlaşdırır və onların fiziki şəxslərə elektron vasitələrlə çatdırılmasına yardımçı olur».

Bələdiyyə sədri onu da bildirdi ki, 2015-ci ilin yanvar ayından yerli özünüidarəetmə orqanlarında nağd ödənişlər ləğv olunur: «Beləliklə, vətəndaşlar öz vergi və ödənişlərini konkret bank hesabına köçürəcəklər. Yəni vergi müfəttişi ilə vətəndaş arasında canlı təmaslar azalacaq və bu, neqativ halların meydana çıxmasının qarşısını alacaq. Vətəndaşlar əmin olacaqlar ki, onların vəsaitləri rəsmi olaraq büdcəyə ödənmişdir».

**Rəşad SADIQOV**

# Üçtərəfli sosial-iqtisadi komissiya yaradılıb

## *Bu, əmək bazarının tənzimlənməsinə yeni təkan verəcək*

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) Beynəlxalq Əmək Təşkilatının (BƏT) əmək bazarının yaxşılaşdırılması və qeyri-formal məşğulluğa qarşı mübarizənin təşkilinə dair tövsiyələrinə uyğun olaraq, yeni tədbirlər planı üzərində işləyir.*

Hazırlanan təkliflər paketində ölkədə sosial müdafiə tədbirlərinin gücləndirilməsi, vətəndaşların əmək hüquqlarının qorunması, əhalinin sosial müdafiəsi ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsi, bu sahədə səmərəli dünya təcrübəsinin təbiq edilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi və digər məsələlərlə bağlı yeni prioritetlər müəyyən edilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, əmək bazarında vəziyyətin yaxşılaşmasına xidmət edən layihələrdən biri ƏƏSMN-nin Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşilatları Milli Konfederasiyasının nümayəndələrindən ibarət üçtərəfli sosial-iqtisadi komissiyanın yaradılmasıdır.

Yaxın günlərdə fəaliyyətə başlayacaq komissiya ölkəmizdə sosial-iqtisadi siyasətin müəyyən edilməsinə və həyata keçirilməsinə, əmək və sosial hüquqların təmin olunmasına fəal dəstək verəcək. Komissiya bu istiqamətdə təkliflər hazırlayıb hökumətə təqdim edəcək, sosial-əmək münasibətlərinin tənzimlənməsi və möhkəmləndirilməsinə dəstək verəcək. Əməyin mühafizəsi, işçilərin sosial müdafiəsinin həyata keçirilməsi və digər sahələrdə həm hökumətin, həm həmkarlar ittifaqı təşkilatlarının, həm də işçilərin və işəgötürənlərin fikirlərinin nəzərə alınması və maraqlarının balanslaşdırılması sahəsində müvafiq işlər görəcək. Yeni struktur bir sıra Avropa ölkələrinin sosial sahədəki təcrübəsini öyrənmək, Aİ ölkələrinin müvafiq qurumları ilə tərəfdaşlıq mübadiləsi qurmaq, bu istiqamətdə görüləcək işlərin istiqamətlərini müəyyən etmək niyyətindədir.



Komissiya 2015-ci ilə kimi işsizlərin sosial müdafiəsinin gücləndirilməsi üçün xüsusi tədbirlərin həyata keçirilməsi, əmək bazarının əhatə dairəsinin genişləndirilməsi və ehtiyacı olan insanların sosial müdafiəsinə vəsait xərcləməklə yanaşı, onların kiçik sahibkarlıqla məşğul olmalarına şərait yaradılmasına və digər işlərə dəstək verəcək. Müəssisə və təşkilatlarda kollektiv sazişlərin və müqavilələrin bağlanmasına dövlət nəzarətinin gücləndirilməsi, sosial tərəfdaşlığın səmərəliliyinin artırılması məqsədi ilə sosial və iqtisadi məsələlər üzrə daimi fəaliyyət göstərən üçtərəfli komissiyaların yaradılması, həmin müqavilələrdə işçilərin sosial müdafiəsinin gücləndirilməsi məsələlərinin əks etdirilməsinin vacibliyi qarşıya məqsəd qoyulub. Bunun üçün yaxın illər ərzində əmək bazarında ədalətli rəqabət mühitinin formalaşdırılması, təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması, qeyri-formal məşğulluğun qarşısının alınması, işsizlərin sosial müdafiəsinin təmin edilməsi, işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunmasına kömək edən xüsusi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş katibi Natəvan Məmmədovanın sözlərinə görə, birgə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin işçilərlə əmək müqavilələrinin bağlanmasının təmin olunması, işçilərin əməkhaqlarının düzgün hesablanması, sığortanın tətbiqi və digər məsələlərinin həlli diqqət mərkəzindədir. Əmək müqavilələrinin leqallaşdırılması üçün son dövrlər atılan addımların mühüm əhəmiyyət daşıdığını bildirən mütəxəssis bu istiqamətdə müxtəlif maarifləndirici tədbirlərə dəstək verəcəklərini vurğulayır. Əmək müqavilələrinin bağlanması fərdi və ictimai rifahın, dövlət gəlirlərinin təmin olunması, iqtisadiyyatın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyindən, sahibkar-dövlət-ictimai qurumlar formatının yaradılması istisna deyil.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov komissiyanın yaradılmasını müsbət addım kimi qiymətləndirərək bunun əmək münasibətlərinin və qanunvericiliyinin təkmilləşdirilməsinə təsir göstərəcəyinə inandığını bildirir. Əmək bazarında baş verən problemlərin həlli, sosial sığorta ilə əlaqədar Əmək Məcəlləsinə və digər qanunvericilik sənədlərinə bir sıra dəyişikliklərin edilməsində qurumun mühüm rolu ola bilər. Bundan əlavə, əmək müqavilələrinin bağlanması sahəsində də təsirli addımlar atılacağını gözləmək olar.

Mütəxəssis hesab edir ki, bəzi hallarda tətbiq edilən pensiya modelinin əlverişsizliyi əmək müqaviləsinin bağlanmasına marağın azalmasına səbəb olur. Hazırda dövlət başçısı tərəfindən təsdiq olunan pensiya təminatı sisteminin islahatına dair konsepsiyada əmək pensiyaçılarının gələcək sosial təminatı ilə bağlı mühüm yeniliklər nəzərdə tutulub. Yeni modelə əsasən, yaxın illərdə pensiya məbləğinin başlıca mənbəyi işləyənlərin ödədiyi sosial sığorta haqqından ibarət olacaq və pensiyanın baza hissəsi tədricən öz əhəmiyyətini itirəcək. Bunun fundamental əsası isə işçinin çalışdığı müəssisədə əmək müqaviləsi bağlamasıdır. İşçilər arasında sosial sığorta ödənişi ilə bağlı rəqabət başlayacaq. Əmək müqavilələrində işçinin əməkhaqqının məbləğinin düzgün göstərilməsi onun marağında olacaq və o, real maaşına uyğun əməkhaqqının göstərilməsini tələb edəcək. Bütün bunlar ikili mühasibatın aradan qalxmasına və vergidən yayınma hallarının qarşısının alınmasına mühüm təsir göstərəcək.

**ELBRUS**

# Xarici sərmayəçilər sənaye texnoparklarında yeni planlar həyata keçirirlər

*2014-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanın sənaye sahəsinə investisiya qoyuluşları ötən ilin müvafiq dövrü ilə müqayisədə 6%-ə yaxın artaraq 6 milyard manata çatıb.*

Statistik məlumatlara əsasən, on ay ərzində ölkə iqtisadiyyatına bütün investisiya qoyuluşlarının 45,1%-i sənaye sahəsinə yönəldilib. Dövlət və özəl şirkətlər tərəfindən ayrılmış vəsaitlər hesabına regionlarda orta və iri sənaye subyektlərinin yaradılması, yenidən qurulması geniş vüsət alıb. Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, tətbiq olunan güzəştli vergi rejimi bu sahəyə marağı artırıb. Prezident İlham Əliyevin imzaladığı «Sənaye parkları haqqında Nümunəvi Əsasnamə»də dəyişikliklər edilməsi barədə fərmanda texnoparklara investisiya qoyuluşlarının artırılması ilə bağlı təşviqedici tədbirlərin nəzərdə tutulması öz mühüm nəticələrini göstərməkdədir.

***Sumqayıt Sənaye Parkında 40-a yaxın şirkət fəaliyyət göstərəcək***

2014-cü ilin ötən 10 ayı ərzində xarici ölkələrin iş adamları bu sahəyə sərmayə qoyuluşu ilə bağlı investisiya layihələrini İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim ediblər. Türkiyə, Kanada, Cənubi Koreya, Çin, Avstriya, Almaniya, Malayziya, Fransa, İtaliya və Yaponiyadan olan şirkətlər tərəfindən 20-dən artıq investisiya təklifi daxil olub və onlar Sumqayıt Kimya Sənaye Parkının rezidenti olmaq niyyətlərini bildiriblər. Bu günlərdə ölkəmizdə olmuş tanınmış şirkətlərin və nüfuzlu maliyyə institutlarının nümayəndələrinin Sumqayıt və Balaxanı texnoparklarına səfərləri çərçivəsində birgə əməkdaşlıq məsələləri və 2015-ci ildə reallaşdırılması nəzərdə tutulan layihələr müzakirə olunub. Sumqayıt texnoparkının direktor müavini Zaur Məmmədovun sözlərinə görə, yaxın 2 il ərzində Sumqayıt Sənaye Parkının ərazisində 35-40 şirkətin fəaliyyət göstərməsi mümkün olacaq. Texnoparka cəlb olunan şirkətlərin iştirakı ilə yeni istehsal sahələrinin yaradılması 2018-ci ilədək davam edəcək, nəticədə bu tədbirlər texnoparkın istehsal coğrafiyasının genişlənməsinə, sənayenin bütün sahələri üzrə məhsul istehsalına imkan verəcək, sənayeləşmənin şaxələnməsini təmin edəcək. Burada qablaşdırma sənayesi, tikinti, energetika, kənd təsərrüfatı üçün gübrə və kimya məhsulları, eləcə də avtomobil istehsalı sahələri prioritetlərdəndir. Nəzərdə tutulan layihələrin peallaşması sayəsində 2017-2018-ci illərdə texnoparkda 10-12 min yeni iş yerinin açılması proqnozlaşdırılır.

Yeri gəlmişkən, «Sumqayıt Kimya Sənaye Parkı» MMC-nin investorlar üçün cəlbediciliyinin daha da artırılması məqsədilə qeydiyyatın «bir pəncərə» sistemi ilə aparılması üçün müvafiq tədbirlər həyata keçirilir. Dövlət Gömrük Komitəsi ilə MMC arasında elektron sistemin inteqrasiya prosesi başa çatdırılıb. Vergilər Nazirliyi ilə də bu sahədə işlər davam etdirilir.

***Fransa sənayeçilərini Azərbaycana əlverişli vergi rejimi gətirib...***

Xarici ekspertlərin texnopark modeli ilə bağlı fikirləri necədir? Azərbaycan hökumətinin tətbiq etdiyi güzəştli vergi-fiskal rejimi bu sahənin perspektiv inkişafı üçün nələri vəd edir?

Fransanın «Thales Group» şirkətinin baş direktoru Jan Bernar Lev hesab edir ki, Azərbaycan onlar üçün əhəmiyyətli ölkədir və fransız iş adamlarını ölkəmizə sənaye texnologiyaları parklarına tətbiq olunan əlverişli investisiya və vergi rejimi gətirib. Bu ölkənin «Air Liquied» şirkətinin nümayəndələri bir müddət əvvəl Sumqayıt Kimya Sənaye Parkında olublar və tərəflər arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb. Fransızlar tikinti, energetika, avtomobil istehsalı sahələrini prioritet hesab edirlər və bu sahələrə kapital yatırmaq niyyətindədirlər: «Sənaye texnoparkı geniş sənaye sahələrini əhatə edən struktur olduğundan, burada müxtəlif məhsulların istehsalı üzrə ixtisaslaşmış müəssisələrin yaradılması mümkündür. Regionlarda texnopark şəbəkəsinin iqtisadi rayonların xammal və potensial gücünə uyğun təşkili məqsədəuyğundur. Fransada belə təcrübə geniş yayılıb, texnopark ərazisində biznes inkubatorlarının, sənaye şəhərciklərı və nou-houların təşkilinə üstünlük verilir».



Almaniyanın «Vinnolit GmbH & Co.Kg» şirkəti də texnoparklar üzrə ixtisaslaşıb. Şirkətin əməkdaşları ötən ay Sumqayıt texnoparkında olublar, əməkdaşlıq imkanları müzakirə edilib. Almaniyalı sənayeçi Ronald Şultsun sözlərinə görə, Azərbaycanda sənaye parklarına alman iş adamlarının cəlb olunması üçün təşviqedici tədbirlər həyata keçirilib: «Almaniya biznesmenləri bu günlərdə Azərbaycanda keçirilən biznes-forum çərçivəsində texnoparklarla tanış oldular. Dördüncü nəsil (4G) texnologiyaların tətbiqi ilə qurulmuş Balaxanı texnoparkı maraqlı layihədir. İstehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri müəssisələrdən geri qalmadığını nəzərə alsaq, Balaxanı texnoparkının yaxın gələcəkdə mühüm sənaye poliqonuna çevriləcəyi şübhə doğurmur».

Yaponiyanın «İtochu Corporation» şirkətinin vitse-prezidenti Yoiçi Kobayaşi də Azərbaycanı sənaye xammalına görə zəngin ölkələrdən hesab edir. O, bildirib ki, yapon iş adamları ölkəmizdə müxtəlif sənaye zonalarında olub, dəmir filizi və polad istehsalı komplekslərinin ixtisaslaşmış texnoparkının yaradılması perspektivlərini nəzərdən keçiriblər. Müasir üsulda qurulan bu sənaye müəssisəsinin fəaliyyəti üçün tətbiq olunmuş əlverişli investisiya və vergi rejiminin əhəmiyyəti böyükdür. Bunun nəticəsi olaraq, Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi ilə Yaponiyanın «Marubeni Corporation» şirkəti arasında müqavilə imzalanıb: «Birgə əməkdaşlığa əsasən, Gəncə və Daşkəsəndə dəmir filizinin hasilatından polad istehsalına qədər bütün mərhələləri əhatə edəcək müasir sənaye parkı yaradılacaq». Yaponiyalı sənayeçilər Sumqayıt Kimya Sənaye Parkında da iştirak etmək fikrindədirlər. «ROTOBO» Assosiasiyasının təşkilatçılığı ilə Yaponiyanın kimya və neft-kimya yönümlü şirkətlərinin əməkdaşlarından ibarət nümayəndə heyətinin Azərbaycana səfəri nəzərdə tutulur.

***Dünya Bankı və Maliyyə Korporasiyası texnoparklara sərmayə yatıracaq***

Beynəlxalq maliyyə institutları da Azərbaycanda texnologiya parklarına investisiya qoymaqda qərarlıdırlar. Dünya Bankının (DB) nümayəndəsi Lora Tak bildirib ki, DB sənaye texnoparkları layihəsinin həyata keçirilməsində maddi və texniki dəstəyini göstərmək niyyətindədir. Bankın nümayəndə heyəti Balaxanı texnoparkında olduqdan sonra bu layihəyə 47 milyon dollar investisiya qoymaq barədə qərarını açıqlayıb. Layihəyə uyğun olaraq, Balaxanı poliqonunun beynəlxalq standartlara uyğun tam reabilitasiyası, Azərbaycanda bərk məişət tullantılarının idarə edilməsi üzrə milli strategiya sənədinin qısa, orta və uzunmüddətli tədbirlər planının hazırlanması, bu sahədə qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması, regional tullantı poliqonlarının və ötürücü məntəqələrin texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması nəzərdə tutulur.

Beynəlxalq Maliyyə Korporasiyasının baş mütəxəssisi Sandra Sargent Azərbaycanda texnoparklara dəstək xarakterli müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinin, vergi-gömrük, investisiya və digər sahələr üzrə addımlar atılmasının xarici investorlar üçün maraq kəsb etdiyini bildirir. Korporasiya bu məqsədlə Gəncə və Mingəçevirdə sənaye texnoparkının yaradılması üçün qiymətləndirmə işləri aparmağı, texniki-iqtisadi hazırlıqlara başlamağı nəzərdə tutur.

**Elbrus CƏFƏRLİ**

# Əmək müqaviləsi bildirişlərinin qeydiyyatı

*Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi işçi və işəgötürənlər arasında bağlanan əmək müqavilələrinin, bu müqavilələrə dəyişiklik edilməsi və ya xitam verilməsinin müvafiq bildiriş formalarında elektron qeydiyyatdan keçirilməsini təmin edir. Bağlanan hər bir əmək müqaviləsi, yaxud ona dəyişiklik edilməsi və ya xitam verilməsi həmin sistemdə qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir.*

Əmək müqaviləsi bildirişləri işçilər üçün əmək, sosial təminat hüquqlarının müdafiəsinin, eləcə də işəgötürən üçün əmək qanunvericiliyində nəzərdə tutulmuş hüquqların qorunmasınının təminat formasıdır. Bu sənəd vasitəsilə işçilərdə göstərilən hüquqların icrasını işəgötürəndən tələb etmək imkanı yaranır. İşəgötürənlər isə işçilərlə münasibətdə əmək müqaviləsində razılaşdırılmış şərtlərin şəffaf şəkildə icrasını təmin edə bilirlər. Bu səbəbdən də təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər. Hazırda əmək müqaviləsi bildirişlərinin sistemdə qeydiyyatdan keçirilməsinə biganə yanaşan, xüsusən də EİS işə salındıqdan sonrakı dövrdə əmək fəaliyyətinə cəlb edilmiş şəxslərlə bağlanmış əmək müqaviləsi bildirişlərini sistemə daxil etməyən işəgötürənlərə qarşı qanunauyğun şəkildə ciddi cəza tədbirlərinin görülməsi gündəlikdədir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsinin nəticəsində bütün işəgötürənlər, eləcə də işçilər imzaladıqları müqavilələr barədə məlumatları real vaxt rejimində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemindən əldə edə biləcəklər. Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi «Elektron hökumət» portalının gücləndirilmiş elektron imza ilə daxil olmağa imkan verən autentifikasiya vasitələrindən istifadə edilməklə, bilavasitə işəgötürən tərəfindən və ya «Elektron hökumət» portalında yerləşdirilmiş «Səlahiyyətli şəxsin qeydiyyatdan keçirilməsi» xidməti vasitəsilə işəgötürənin səlahiyyət verdiyi şəxslər tərəfindən həyata keçirilir. İşçinin onunla bağlı qeydiyyata alınmış müvafiq əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etmək imkanları elektron informasiya sistemi vasitəsilə təmin olunur. Hər bir işçi onunla bağlı müvafiq əmək müqaviləsi bildirişinin məlumatlarını «Elektron hökumət» portalının mövcud autentifikasiya vasitələrindən istifadə etməklə «Əmək müqaviləsi bildirişlərinin məlumatlarının işçilər tərəfindən əldə edilməsi» xidmətini seçərək, özü barədə müvafiq məlumatı əldə edə bilər. Elektron informasiya sistemi işəgötürənlərin və işçilərin digər işəgötürən və işçilər barədə sistemdən məlumat almasına imkan yaratmır.

ƏƏSMN tərəfindən respublikanın bütün regionlarında işəgötürənlər üçün «Açıq qapı günü-vətəndaş forumu» həyata keçirilib, hər bir regionda «Yardımçı masalar» yaradılıb. Aparılan təbliğat işlərinin nəticəsini qənaətbəxş hesab etmək olar. Nazirliyin rəsmi internet saytında «İşçilərlə bağlanmış əmək müqavilələrini elektron informasiya sistemində qeydiyyatdan keçirmisinizmi?» sualı ilə sorğu keçirilir. Sorğuda iştirak edən 167 nəfərin 98-i suala «bəli» cavabını verib.

*Təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, bütün işəgötürənlər əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi ilə bağlı elektron informasiya sistemində əmək müqaviləsi bildirişini qeydiyyatdan keçirməlidirlər*

Bundan əlavə, ƏƏSMN-nin «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi» elektron xidmətindən istifadə sayı son bir ayda 256.232 ədəd təşkil edib. Ümumiyyətlə, indiyədək «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi» elektron xidmətindən 1.877.634 dəfə, «Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi» elektron xidmətindən isə 176 min dəfə istifadə olunub.

**A.NƏBİYEVA**

# Elektron cəmiyyətə keçid

Azərbaycan Prezidenti bu ilin sentyabr ayında dövlət orqanlarının həyata keçirdikləri xidmətlər haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması və yeni növ xidmətlərin yaradılması yolu ilə bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi, xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılması məqsədilə dövlət orqanları tərəfindən həyata keçirilən bütün xidmətlərin elektron reyestrinin yaradılması barədə fərman imzalayıb. Bu o deməkdir ki, dövlət qurumlarının hazırda göstərdikləri xidmətlərlə yanaşı, həm də klassik üsulla göstərilən və hələ də elektronlaşdırılmamış xidmətlərin də reyestri formalaşmış olacaq. Nəticədə vətəndaşların dövlət qurumlarına hansısa xidmət üçün üz tutmalarına ehtiyac qalmayacaq.



***«Elektron hökumət» quruculuğu inkişaf edir***

Azərbaycan İnternet Forumunun prezidenti, «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüzün sözlərinə görə, əvvəlki illərlə müqayisədə son illər «Elektron hökumət» quruculuğu istiqamətində canlanma hiss olunur: «Son illər dövlət orqanlarının yetərincə diqqəti nəticəsində bu sahədə xeyli irəliləyişlər olub. Həm infrastruktur, həm xidmətlərin genişləndirilməsi, həm də texnologiyaların tətbiqi üzrə irəliləyişlər müşahidə olunur. Əvvəllər elektron xidmətlərdən təkcə dövlət qurumlarının saytları vasitəsilə istifadə etmək mümkün olurdusa, artıq bu iş «Elektron hökumət» portalı vasitəsilə davam etdirilir. Xidmətlərin çeşidləri də xeyli artıb. Nazirlər Kabinetinin qərarına əsasən, 450-yə qədər elektron xidmət növü müəyyənləşmişdi. Bu xidmətlərdən artıq 380-ə yaxınını portaldan və dövlət qurumlarının saytlarından əldə etmək mümkündür. Siyahıda nəzərdə tutulan digər xidmətlərin də tezliklə elektron formaya çevriləcəyinə ümid edirik».

***Yeni texnologiyalardan istifadəyə önəm verilir***

O.Gündüzün sözlərinə görə, hazırda ölkədə xidmətlərin daha çox yeni texnologiyalardan istifadə etməklə əldə olunması məsələlərinə diqqət yetirilir. Misal üçün, indi mobil texnologiyalardan, «Asan imza» kartı vasitəsilə xidmətlərdən istifadə etmək mümkündür: «Dünyada elektron hökumətin, elektron xidmətlərin qiymətləndirilməsi səviyyəsi 5 pilləli sistemlə müəyyənləşir. Azərbaycan hələlik 4-cü səviyyədədir. Ölkəmizdə hələ dövlət qurumlarının informasiya sistemlərinin inteqrasiya məsələsi tam həllini tapmayıb. Vətəndaşlar hansısa dövlət orqanına getdikdə ondan digər dövlət orqanında olan məlumatlar tələb olunmamalıdır. Həmin dövlət orqanı vətəndaşın adını yazarkən bütün məlumatlar çıxmalıdır. Bu problem həll olunduqdan sonra 5-ci səviyyəyə yüksələ bilərik. Hazırda bu istiqamətdə müəyyən addımlar atılır».

Ekspertin fikrincə, ölkədə elektron cəmiyyətin inkişaf tempini azaldan amillərdən biri maliyyə məsələsidir. Onun sözlərinə görə, elə dövlət qurumları var ki, xidmətlərin elektron varianta çevrilməsi ilə bağlı maddi vəsaitə ehtiyacı yoxdur. Amma maliyyə təminatına ehtiyacı olan dövlət qurumları da var.

***Dövlət qurumları bu işdə maraqlı olmalıdırlar***

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yanında elektron xidmətlərin təşviqi üzrə İctimai Şuranın koordinatoru kimi də fəaliyyət göstərən Osman Gündüz aparılan araşdırmalardan söz açaraq qeyd edir ki, dövlət qurumlarının xidmətlərin elektronlaşdırılmasında maraqlı olması həmin qurumun birinci şəxsinin mövqeyini də ifadə edir: «Araşdırmalarımız göstərir ki, bəzi dövlət qurumlarında, başda birinci şəxs olmaqla, İT və xidmət departamentlərinə qədər bütün strukturlar bu işdə maraqlıdır. Bu səbəbdən də xidmətlərin elektronlaşdırılması sahəsində işlər nəzərəçarpacaq dərəcədə yaxşı gedir. Həmin qurumlardan Vergilər Nazirliyi, RYTN, Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, ƏMDK, TQDK, ƏƏSMN, DSMF və digərlərinin adlarını çəkmək olar».

İctimai Şuranın xətti ilə xidmətlərin keyfiyyətinin, elektron hökumətin populyarlığının artırılması ilə bağlı təkliflər hazırlanaraq Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim edilib. Bu təkliflər içərisində dövlət qurumlarının öz xidmətləri ilə bağlı videoçarxlar hazırlaması, vətəndaşların məlumatlandırılması, təqdimatların keçirilməsi, televiziya proqramlarının təşkil edilməsi kimi məsələlər yer alıb.

**AYTƏN**

# İpoteka kreditlərinin həcmi artır

Azərbaycanda ipoteka sistemindən yararlanaraq mənzil sahibi olanların sayı artır. Artıq bu ilin noyabr ayının 7-dək 15481 ipoteka sənədləşdirilib ki, verilmiş ipoteka kreditləri üzrə məbləğ 616.324.800 manatı keçib. Dövlət ipoteka proqramından istifadə edənlərin 70%-i gənclər və gənc ailələrdir. Azərbaycan Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondundan (AİF) aldığımız məlumata əsasən, bu siyahıda dövlət büdcəsində çalışanlar üstünlük təşkil edirlər: kreditlərin ümumi həcminin 39,5%-i bu sektorda işləyənlərə verilib. İkinci yerdə özəl müəssisələrin və firmaların əməkdaşları durur ki, onlara ayrılan kreditin həcmi 23,3%-dir. Maliyyə sektorunda çalışanlara kreditlərin 21,5%-i, neft sektorunda işləyənlərə isə 15,8%-i ayrılıb.

2014-cü ilin yanvar-sentyabr ayları üzrə AİF tərəfindən 23,28 milyon manat kredit ayrılıb ki, bu da yaşayış məskənlərinin maliyyələşdirilməsinin ümumi həcmini 613, 89 milyon manatadək artırıb. Dövlət büdcəsindən sosial ipotekaların maliyyələşməsinə 216 milyon manat ayrılıb. Bu ilin oktyabr ayına olan göstəricilərə görə, güzəştli əsaslarla 115,3 milyon manatlıq 3216 kredit verilib. Güzəştli kredit proqramı şəhid ailələri, Azərbaycanın Milli Qəhrəmanlarının ailə üzvləri, məcburi köçkünlər, hərbçilər, alimlər, idmançılar, dövlət qulluqşuları və digər sosial qruplar üçün nəzərdə tutulub. Güzəştli şərtlərlə kredit alan ailələr bu imkandan yalnız bir dəfə yararlana bilərlər. Adi qaydalar çərçivəsində verilən ipotekaların dəyəri isə 410,01 milyon manat təşkil edir. Adi ipoteka istiqrazların yerləşdirilməsindən cəlb edilmiş vəsaitlərdən verilir.

Qeyd edək ki, AİF tərəfindən verilən adi ipoteka kreditinin maksimal həcmi 50 min manatdır ki, bu da 8%-lə 27 ilə, sosial ipotekada isə 30 ilə 4%-lə hesablanıb. Adi ipotekada 20% olan ilkin ödəniş sosial ipotekada 15%-dir.

İpoteka şərtlərindən biri budur ki, kreditlər milli manatla və yalnız Azərbaycan vətəndaşlarına ödənilməlidir. İpoteka obyekti yalnız şəxsi ev və mənzil olmalı, kreditin həcmi isə yaşayış məskəninin bazar qiymətinin 80%-ni keçməməlidir. Həyat sığortası müqaviləsi mütləqdir.



İpoteka sisteminin idarə edilməsində və vətəndaşlara xidmət səviyyəsinin yüksəldilməsində AİF innovativ üsullara və texnologiyaların tətbiqinə üstünlük verir. Aktivlərinin məbləği 577 milyon manat olan İpoteka Fondunun səlahiyyətində 28 bank var. «Bank of Baku» ASC-nin Müştəri Xidmətləri Departamentinin İpoteka bölməsinin rəhbəri Aslan Məmmədzadə bildirir ki, daşınmaz əmlak bazarında son 2 ildə müşahidə olunan qiymət artımı kredit məbləğlərinə yenidən baxılmasına zərurət yaradıb: «Bu gün ölkədə ipoteka kreditləri şərtlərinin dəyişməsinə ehtiyac var. Çünki hazırda kreditin maksimal məbləği evlərin qiyməti ilə uyğunluq təşkil etmir. Gəncləri ipoteka krediti faizlərinin yuxarı olması da narahat edir. Digər məqam isə İpoteka Fondunun portfelinin genişlənməsidir. Belə olarsa, daha çox gənc bu imkandan istifadə edib öz sosial durumunu yaxşılaşdıra bilər».

Qeyd edək ki, Milli Məclisə təqdim edilmiş 2015-ci il üçün dövlət büdcəsində bu məsələ nəzərə alınmışdır. Qanun layihəsinə görə, gələn il ölkədə ipoteka kreditləri üçün ayrılan məbləğin 25% artırılaraq 50 milyon manat təşkil edəcəyi gözlənilir. AİF-in 2014-cü ildə büdcədən əldə etdiyi məbləğ isə bundan az - 40 milyon manat təşkil edir.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 noyabr - «5», «(5)» və «6».

20 noyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.




# Dövlət büdcəsinə borcu olan vergi ödəyicilərinin ölkədən getmək hüququ məhdudlaşdırılır

*Vergi borcunun dövlət büdcəsinə məcburi qaydada ödətdirilməsinin təsirli vasitələrindən biri də borcu olan fiziki şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılmasıdır. Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən, dövlət büdcəsinə borcu olan fiziki şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması məqsədi ilə vergi orqanları tərəfindən icra məmurlarına müraciət edilir. «İcra haqqında» Qanunun 84-1.1-ci maddəsində göstərilir ki, dövlət büdcəsinə borcu olan fiziki şəxslərin ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırılır. 2014-cü il ərzində respublika üzrə 39 fiziki şəxsin ölkədən getmək hüququ vergi orqanlarının təşəbbüsü ilə qanun əsasında məhdudlaşdırılmışdır.*

**Ölkədən getmək hüququ məhdudlaşdırılmış vergi ödəyicilərinin siyahısı**

| S/N | Vergi ödəyicisinin adı | S/N | Vergi ödəyicisinin adı |
|---|---|---|---|
| 1 | ƏZİZLİ ƏZİZ FƏQANİ OĞLU | 17 | MƏMMƏDOV SAHİB ÇİNGİZ OĞLU |
| 2 | İSGƏNDƏROVA YEGANƏ MƏHƏMMƏD QIZI | 18 | SƏFƏROV ZAKİR XANKİŞİ OĞLU |
| 3 | ALLAHVERDİYEV İLHAM ÇİNGİZ OĞLU | 19 | AĞAYEV RAMİN QƏNBƏR OĞLU |
| 4 | BAĞIROV ALTAİR ELDAR OĞLU | 20 | HƏSƏNOV ELDƏNİZ ELDAR OĞLU |
| 5 | MƏSTANLI ELŞƏN VİLAYƏT OĞLU | 21 | HƏSƏNOV RAMİN MÖHÜBBƏT OĞLU |
| 6 | ƏBDÜRƏHMANOV ANAR FƏRMAN OĞLU | 22 | NƏBİYEV ƏRŞAD NƏSİR OĞLU |
| 7 | ADIGÖZƏLOV RÖVŞƏN VAQİF OĞLU | 23 | NURƏHMƏDOV ZALAN ZAMAN OĞLU |
| 8 | MUSTAFAYEV TARYEL SURXAY OĞLU | 24 | MƏMMƏDOV XAQANİ NƏSİR OĞLU |
| 9 | CƏFƏROV ƏLASLAN ALI OĞLU | 25 | ZEYNALOV CAVİD NƏSİB OĞLU |
| 10 | MUSTAFAYEV ZAUR MEHMAN OĞLU | 26 | HÜSEYNOV ELŞAD MOBİL OĞLU |
| 11 | TEYMURZADƏ VÜSAL RAMƏDDİN OĞLU | 27 | İSGƏNDƏROV VALEH VƏLİYƏDDİN OĞLU |
| 12 | YOLÇİYEVA OLQA VAQİF QIZI | 28 | ALIYEV MƏNSUR MAHMUD OĞLU |
| 13 | ƏLİYEV BABƏK CAHİD OĞLU | 29 | MEHDİYEV CEYHUN NAMİQ OĞLU |
| 14 | XƏLİLOV MİSİR VƏZİR OĞLU | 30 | ƏLİYEV CEYHUN YAVƏZ OĞLU |
| 15 | ƏHMƏDOV RAVİL ARİF OĞLU | 31 | MƏMMƏDOV ELŞAD ZÖHRAB OĞLU |
| 16 | ALLAHVERDİYEV VÜSAL RÖVŞƏN OĞLU | 32 | RZAYEV ZAUR ŞƏMSƏDDİN OĞLU |
| | | 33 | QAFAROV ELXAN RƏŞİD OĞLU |

***Qeyd:*** *Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış altı nəfər fiziki şəxs tərəfindən dövlət büdcəsinə olan borclar tam ödənildiyi üçün onların üzərindən bu məhdudiyyət götürülmüşdür.*

# Mənfəət vergisi bəyannaməsinin 1№-li Əlavəsinin tərtib olunmasında mühasibat uçotu məlumatlarının düzgün yerləşdirilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Təcrübə göstərir ki, mənfəət vergisi bəyannaməsinin və sadələşdirilmiş vergi bəyannaməsinin 1№-li Əlavəsinin tərtib olunması zamanı vergi ödəyiciləri aktivlərinin, kapitalının və öhdəliklərinin daxil olması və xaricolması ilə bağlı məbləğlərinin Əlavənin müvafiq xanalarında düzgün yerləşdirilməsində çətinliklərlə qarşılaşa bilərlər. Əlavənin müəyyən qədər düşündürücü olan hissəsi aktivlərin, kapitalın və öhdəliklərin məxaric hissəsidir. Əlavənin məxaric hissəsi «təqdim edilmişdir», «silinmişdir» və «ləğv edilmişdir» ifadələri ilə 3 istiqamətdə bölüşdürülüb. İlk baxışda bu üç ifadə eyni mənaları verə bilər, lakin bu ifadələr vergitutmada müxtəlif fərqli vergitutma bazası törədə bilir.

Məsələn, təqdim edilən mal üzərində mülkiyyət hüququ başqa şəxsə keçdiyinə görə yaranan məxaric dövriyyəsi vergiyə (sadələşdirilmiş və ya mənfəət) cəlb olunur. Ləğv olunan mal isə başqa səxsə verilmədən ləğv olunmaqla dövriyyədən çıxarıldığına görə nə sadələşdirilmiş, nə də mənfəət vergisinə cəlb olunur. Ona görə də vergi ödəyiciləri Əlavədə məxariclər üzrə məbləğlərin yerini düzgün göstərməlidirlər ki, vergi orqanı tərəfindən aparılan kameral yoxlama zamanı «uyğunsuzluq» faktları qarşısında qalmasınlar.

Əlavənin məxaric hissəsindəki «təqdim edilmişdir», «silinmişdir» və «ləğv edilmişdir» xanalarında aşağıdakı əməliyyatlar üzrə məbləğlərin göstərilməsi tövsiyə olunur:

| | | |
|---|---|---|
| 1.1 Əsas vəsaitlərin dəyəri | *Təqdim edilmişdir* | Əsas vəsaitlər üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onun qalıq dəyəri |
| | *Silinmişdir* | Əsas vəsaitlər üçün hesablanmış amortizasiya məbləğləri |
| | *Ləğv edilmişdir* | İstismar müddəti başa çatdığına, itdiyinə, oğurlandığına görə ləğv edilərək balansdan silinən əsas vəsaitlərin qalıq dəyəri |
| 1.2 Qeyri-maddi aktivlərin dəyəri | *Təqdim edilmişdir* | Qeyri-maddi aktivlər üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onun qalıq dəyəri |
| | *Silinmişdir* | Qeyri-maddi aktivlər üçün hesablanmış amortizasiya məbləğləri |
| | *Ləğv edilmişdir* | Ləğv edilərək balansdan silinən qeyri-maddi aktivlərin qalıq dəyəri |
| 1.3 Ehtiyatlar | *Təqdim edilmişdir* | Ehtiyat hesab edilən əşyalar üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onların mədaxil (uçota alınan) dəyəri |
| | *Silinmişdir* | Xərclərə aid edilən (istehsalata buraxılan, xidmət və iş sahəsində istifadə olunan) ehtiyat hesab edilən əşyaların mədaxil (uçota alınan) dəyəri |
| | *Ləğv edilmişdir* | Xarab olmuş, oğurlanmış və digər fövqəl hadisələr nəticəsində itkiyə məruz qalmış ehtiyat hesab edilən əşyaların ləğv edilərək balansdan silinən mədaxil (uçota alınan) dəyəri |
| 1.4 Debitor borcları | *Təqdim edilmişdir* | Boş saxlanılır |
| | *Silinmişdir* | Debitor tərəflərdən daxil olan vəsaitlər və verilmiş avansların (artıq ödəmələrin) bağlanması üzrə məbləğlər |
| | *Ləğv edilmişdir* | İddia müddəti ötmüş (alınması mümkün olmayan) debitor borc məbləğləri üzrə silinən məbləğlər |
| 1.5 Pul vəsaitləri | *Təqdim edilmişdir* | Boş saxlanılır |
| | *Silinmişdir* | Pul hesablarından çıxan vəsaitlər |
| | *Ləğv edilmişdir* | Boş saxlanılır |
| 1.6 Səhmlər və iştirak payları üzrə maliyyə qoyuluşları | *Təqdim edilmişdir* | Alınmış səhmlər (başqa hüquqi şəxslərə məxsus səhmlər) üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onların alış (uçota alınan) dəyəri |
| | *Silinmişdir* | Səhmini (payını) aldığı müəssisənin ləğvi, yenidən təşkili nəticəsində geri qaytarılan həmin səhmlərin (payların) alış (uçota alınan) dəyəri |
| | *Ləğv edilmişdir* | Məhkəmə qaydasında etibarsız hesab edilən səhmin, payın alış (uçota alınan) dəyəri |
| 1.7 Dövlət qiymətli kağızları | *Təqdim edilmişdir* | Dövlət qiymətli kağızları üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onların mədaxil (uçota alınan) dəyəri |
| | *Silinmişdir* | Geri qaytarılan dövlət qiymətli kağızların alış (uçota alınan) dəyəri |
| | *Ləğv edilmişdir* | Məhkəmə qaydasında etibarsız hesab edilən dövlət qiymətli kağızlarının alış (uçota alınan) dəyəri |
| 1.8 Kapitallaşdırma üçün aktivlər | *Təqdim edilmişdir* | Kapitallaşdırma üçün aktivlər üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onların mədaxil (uçota alınan) dəyəri |
| | *Silinmişdir* | Digər aktiv hesablara keçirilən kapitallaşdırma üçün aktivlərin mədaxil (uçota alınan) dəyəri |
| | *Ləğv edilmişdir* | Xarab olmuş, oğurlanmış və digər fövqəl hadisələr nəticəsində itkiyə məruz qalmış kapitallaşdırma üçün aktivlərin ləğv edilərək balansdan silinən mədaxil (uçota alınan) dəyəri |
| 1.9 Gələcək dövrün xərcləri | *Təqdim edilmişdir* | Boş saxlanılır |
| | *Silinmişdir* | Gələcək dövrün xərclərindən hazırkı hesabat dövrünə aid edilən hissəsi üzrə məbləğlər |
| | *Ləğv edilmişdir* | Boş saxlanılır |
| 1.10 Digər aktivlər | *Təqdim edilmişdir* | Digər aktivlər hesab edilən əşyalar üzərində mülkiyyət hüququ başqa səxsə keçdikdə (satıldıqda, bağışlandıqda və sair) onların mədaxil (uçota alınan) dəyəri |
| | *Silinmişdir* | Xərclərə aid edilən digər aktivlər hesab edilən əşyaların və sair aktivlərin mədaxil (uçota alınan) dəyəri |
| | *Ləğv edilmişdir* | Xarab olmuş, oğurlanmış və digər fövqəl hadisələr nəticəsində itkiyə məruz qalmış digər aktivlər hesab edilən əşyaların ləğv edilərək balansdan silinən mədaxil (uçota alınan) dəyəri |

beynəlxalq panoram

# Alman avtobanları pullu olacaq

Avropa İttifaqının bir çox ölkələri kimi, Almaniya hökuməti də əfsanəvi alman avtobanlarında hərəkəti pullu etmək niyyətindədir.

Hökumətin mövqeyinə görə, 2016-cı ildən başlayaraq, Almaniyanın sürətli avtomagistrallarında hərəkət edən bütün avtomobillərə ildə 130 avro tarif tətbiq ediləcək. Nəqliyyat nazirinin fikrincə, ölkə vətəndaşlarından və əcnəbilərdən «yol yığımı» avtoban və regional əhəmiyyətli yollardan istifadəyə görə alınacaq.




İndiyə qədər Almaniyanın avtobanlarında hərəkət pulsuz olub. Yeni qanun layihəsi alman avtomobil həvəskarlarına heç bir təsir göstərməyəcək - onlara tətbiq edilən yol haqqı nəqliyyat vasitəsinə görə illik vergidən çıxılacaq. Əcnəbilər isə avtomobilin ön şüşəsinə gediş haqqının ödənilməsini təsdiq edən xüsusi vərəq yapışdırmağa məcbur olacaqlar. Onlar bu haqqı yalnız sürətli avtobanlarda ödəməli olacaqlar. 10 günlük icazə 10 avro, iki aylıq isə 22 avroya başa gələcək.

Almaniyanın Nəqliyyat Nazirliyi sakinlərə təskinlik verərək bildirir ki, əvvəllər dizel mühərrikli «Volkswagen Golf 5 i» avtomobilinin sahibi büdcəyə ildə 293,36 avro vergi ödəyirdi, 2016-cı ildən illik verginin ümumi məbləği dəyişməyəcək, onun 163,36 avrosu nəqliyyat vergisi, qalan 130 avrosu isə «infrastrukturdan istifadəyə görə» vergi kimi hesablanacaq. Nazirliyin hesablamalarına görə, bu tədbir xəzinəyə ildə 500 milyon avro əlavə vəsait gətirəcək.

# Çin neft hasilatı üzrə vergini artırır

*Dekabrın 1-dən hökumət neft hasilatı üçün istifadə olunan təbii ehtiyatlar vergisini 5%-dən 6%-dək artıracaq.*

Bu dəyişiklik təbii ehtiyatlardan istifadə sahəsində vergi islahatlarının növbəti tədbiridir. Vergi orqanları iddia edirlər ki, islahat enerjiyə qənaəti stimullaşdırmaq məqsədi daşıyır. Çində neft satışından gəlirlərə əsaslanan resurs vergisi 2010-cu ildən tətbiq edilir.

Çinin Maliyyə Nazirliyi və Dövlət Vergi İdarəsi bildirir ki, bütün resurs sahələrində vergi islahatlarının keçirilməsinə yönəldilən iş digər qurumlarla birgə davam etdiriləcək.

# Qazaxıstanda kənd təsərrüfatı üzrə vergiqoymada islahatlar aparılacaq

*Qazaxıstan Tətbiqi Geofizika İnstitutunun üzvləri Martusk rayonunun bir sıra kənd təsərrüfatı müəssisələrində olduqdan sonra «Aqrobiznes-2020» proqramına edilən dəyişikliklər və əlavələr məsələləri üzrə müşavirə keçirilib.*

Dəyişikliklər kənd təsərrüfatında vergiqoyma sahəsinə aiddir. Dəyişikliklərə əsasən, torpaq vergisi 5 dəfə artırılsa da bir çox vergilər, məsələn, nəqliyyat, əmlak vergilərinin ləğv olunması, ətraf mühitə emissiyanın sıfıra endrilməsi sayəsində kənd təsərrüfatı istehsalçılarının vergi yükü ağırlaşmayacaq.

Bundan başqa, kənd təsərüffatı məhsulları emalçıları üçün ƏDV-nin ödənilməsi sahəsində müsbət dəyişikliklər nəzərdə tutulub. Kənd Təsərrüfatı Nazirliyi ət, yun və digər kənd təsərrüfatı məhsullarının kölgə dövriyyəsi ilə mübarizə aparmağı planlaşdırır.

Kəndli təsərrüfatı ƏDV ödəyicisi deyil. Bu təsərrüfatların məhsullarını alan emal müəssisələri ƏDV-ni bütün dövriyyədən ödəməlidir. İndi isə emal müəssisəsi ƏDV ödədiyi hallarda bütün məbləğ dövlət büdcəsindən qaytarılacaq. Bununla yanaşı, dövlət yenidən sığorta fondu yaratmaqla, kəndli təsərrüfatlarının sığortası sahəsində dəyişikliklərin aparılmasını planlaşdırır.

Nazir qeyd edib ki, yaxın illərdə kənd təsərrüfatının inkişafını ləngidən üç əsas problemli məsələnin: yüksək riskin, aşağı rentabelliyin və zəif girov bazasının həlli məqsədi qarşıya qoyulub.



Xarici ölkələrin təcrübəsi

# İsveçin vergi sistemi: *mənfəət vergisi*

*Skandinaviya ölkələri içərisində iqtisadiyyatının inkişaf səviyyəsinə görə birinci dövlət olan İsveç 1995-ci ildən Avropa İttifaqının üzvüdür, lakin Avrozonaya qoşulmamışdır. 2001-ci ildən İsveç Şengen zonasına daxilddir.*

ÜDM-in həcminə görə dünyada 22-ci, Avropada isə 8-ci yerdədir. 2012-ci ildə İsveçin ÜDM-i 408,1 mlrd mlrd. ABŞ dolları təşkil etmiş, ÜDM-in real artımı 0,7% olmuşdur. ÜDM-in sektorlar üzrə bölgüsündə xidmətlər (70,8%) və sənaye (27,4%) üstünlük təşkil edir. 2012-ci il üzrə adambaşına düşən ÜDM 43176, dövlət büdcəsinin gəlirləri 121,2 mlrd., dövlət büdcəsinin xərcləri 125,0 mlrd. ABŞ dolları olmuşdur.

İsveçin baş direktor tərəfindən idarə olunan Vergi Agentliyi baş idarə və səkkiz regional idarədən ibarətdir. Bəzi yerli idarələr vətəndaşlıq vəziyyətinin qeydiyyatı, miqrasiya və doğum şəhadətnamələrinin verilməsi və vərəsəliyin təsdiq edilməsi kimi səlahiyyətlərə malikdir. Ölkədə vergi əməkdaşlarının sayı 10500 nəfərdir. Vergi əməkdaşlarının sayında qadınların xüsusi çəkisi 66%-dir. İsveçdə vergi ödəyicilərinin sayı 9 261 min, ƏDV ödəyicilərinin xüsusi çəkisi 10,8%-dir. Vergi ödəyicilərinin əhalinin sayında xüsusi çəkisi 97%-dir.

2012-ci ildə İsveç Vergi Agentliyi xətti ilə 224,7 mlrd. dollar (o cümlədən birbaşa vergilər - 49,9%, dolayı vergilər - 21,9%, sosial sığorta - 27,7%, digər - 0,5%) həcmində vergi yığılmışdır.

**Mənfəət vergisi**

Müəssisələrin mənfəəti klassik sistem üzrə vergiyə cəlb edilir. Səhmdarların müəssisə olduğu halda iştirak azadolması tətbiq olunur.

Aşağıdakı müəssisələr mənfəət vergisinin ödəyiciləridirlər:

• İsveçdə qeydiyyatdan keçmiş dövlət və özəl müəssisələr;

• İsveçdə qeydiyyatdan keçmiş iqtisadi assosiasiyalar;

• İsveçdə qeydiyyatdan keçmiş və ya İsveç qanunvericiliyinə əsasən yaradılmış fondlar;

• qanunla müəyyən edilmiş digər assosiasiya və qruplar.

Yuxarıda qeyd edilən kateqoriyalar vergitutma məqsədləri üçün rezidentlərə bərabər tutulur və qeyri-məhdud vergi öhdəliyi daşıyır. Qeyri-rezident müəssisələr yalnız İsveç mənbəyindən əldə etdikləri gəlirlərindən vergi ödəyirlər.

Ortaqlıqların tərəfləri ayrılıqda vergi ödəyicisidir. Yalnız daşınmaz əmlak vergisi və pensiya xərclərindən xüsusi məvacib vergisi məqsədləri üçün ortaqlıqlar ayrıca şəxs kimi vergiyə cəlb edilir.

İsveç Müəssisələr Qeydiyyatı İdarəsində qeydiyyatdan keçən müəssisələr rezident hesab edilir. Rezident müəssisələrin bütün dünya üzrə gəlirlərindən vergi tutulur. Müəssisənin bütün gəlirləri sahibkarlıq fəaliyyətindən gəlir kimi qiymətləndirilir.

Əsas azadolmalar müəyyən müəssisələrarası dividendlərə və səhmdarlar tərəfindən kapital qoyuluşlarına tətbiq edilən azadolmalar hesab edilir. Qeyri-kommersiya təşkilatlarının, mərkəzi və yerli hakimiyyətin müəyyən fəaliyyətləri, dövlət müəssisələri, kilsələr, məktəblər və xəstəxanalar vergidən azaddır.

Vergiyə cəlb edilən gəlirin əldə olunması və qorunması məqsədilə çəkilmiş bütün xərclər gəlirdən çıxılır.




2012-ci il yanvarın 1-dən yalnız müəssisənin əsas fəaliyyəti ilə əlaqədar tədqiqat və inkişaf (R&D) xərcləri deyil, bütövlükdə müəssisənin əsaslı maraqlarını cəlb edən tədqiqat və inkişaf xərcləri, eləc də faiz və royaltilər gəlirdən çıxılır. Lakin bir qayda olaraq, əlaqəli şəxslərlə əməliyyatlarda bazar qiymətlərinə riayət edilməlidir. 2013-cü il yanvarın 1-dən məqsədindən asılı olmayaraq əlaqəli müəssisələrə ödənilməli olan borclara məhdudiyyət tətbiq edilir. Buna müvafiq olaraq həmin borclara aid edilən faizlərin gəlirdən çıxılmasına yol verilmir. Məhdudiyyətin tətbiq edilməsi məqsədilə əlaqəli müəssisələr dedikdə aşağıdakılar nəzərdə tutulur:

• bir müəssisənin səhmlər, faizlər və ya digər vasitələrlə digər müəssisə üzərində birbaşa və ya dolayı şəkildə əhəmiyyətli təsirə malik olması;

• müəssisənin digər müəssisə tərəfindən idarə olunması.

Cinayət qanunvericiliyinə əsasən, rüşvət və digər qanunsuz ödənişlər, cərimələr və müəyyən hədlər xaricində əyləncə xərcləri gəlirdən çıxıla bilməz. Əməkhaqqı fondundan vergi və sosial sığorta ayırmaları istisna olmaqla birbaşa vergilər gəlirdən çıxıla bilməz. Ödənilmiş dividendlərin gəlirdən çıxılmasına yol verilmir.

2013-cü il yanvarın 1-dən mənfəət vergisi 22% dərəcə ilə tətbiq edilir (əvvəllər 26,3% olmuşdur). Rezident müəssisələrə ödənilən dividend, faiz və royaltilər ödəmə mənbəyində vergiyə cəlb edilmir.

***Amortizasiya məbləğləri:*** Maşın və avadanlıq, adətən, azalan qalıq metodu ilə amortizasiya olunur. Amortizasiyanın illik maksimal həddi əsas vəsaitlərin balans üzrə ilin əvvəlinə qalıq dəyərinin il ərzində alınmış əsas vəsaitlərin dəyəri qədər artırılmış və il ərzində satılmış və ya itirilmiş əsas vəsaitlərin dəyəri qədər azaldılmış həcminin 30%-ni təşkil edir. Düz xətt metodu ilə amortizasiyanın illik norması 20% təşkil edir.

İstifadə müddəti 3 ildən artıq olmayan aktivlər və dəyəri az olan aktivlər əldə edildiyi il tam amortizasiya edilə bilər. Dəyəri 22.000 kronadan (3 375 ABŞ dolları, 2012-2013-cü illər üçün) artıq olmayan aktivlər alındığı il tam amortizasiya edilir.

Səmərəli istifadə müddəti məhdud olan bəzi qeyri-maddi aktivlər amortizasiya edilir. Bunlara bütün növ əqli mülkiyyət, ticarət nişanları, qudvil və icarə hüquqları aiddir.

Tikililər yalnız düz xətt metodu ilə amortizasiya edilir. 2013-cü il üçün amortizasiya dərəcəsi vergi ödəyicisi və vergi orqanı arasında illik 2-5% arasında razılaşdırılır. Yalnız bir neçə il istifadə edilməsi nəzərdə tutulmuş tikililərin dəyəri əldə edildiyi il silinir.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord




**Yuxarıdan aşağı:**

1.Azot və hidrogenin birləşməsindən əmələ gələn kəskin qoxulu rəngsiz qaz; 2.ABŞ-da ştat; 3.Rusiya Federasiyasında Zabaykalsk diyarında çay; 4.Fransız rəssamı, qrafiki və heykəltəraşı. İmpressionizm cərəyanının parlaq nümayəndələrindən biri; 5.Qədim yunan əsatirində allahların məskəni, yığıncaq yeri; 6.Kimyəvi üsulla əldə edilən tünd-sürməyi boya maddəsi; 9.İrsən ötürülən və ölkəni, şəhəri, nəsli, fərdi xarakterizə edən elementlərlə bəzədilmiş emblem; 13.2001-ci ildə 3D formatında çəkilmiş, «Oskar» mükafatı qazanmış bir neçə hissədən ibarət ABŞ animasiya filmi; 15.Daşınar əmlakı və ya başqa bir şeyi girov kimi qəbul edib, borc pul verən kredit müəssisəsi; 16.Əşya, hadisə və anlayışlara münasibət, nöqteyi-nəzər; 17.Qədim yunan mifologiyasında tanrı; 18.Ofisiant; 20.«Kitabi-Dədə Qorqud»da xan; 21.SSRİ xalq artisti, bəstəkar və dirijor. «Şahsənəm» operasının müəllifi.

**Soldan sağa:**

1.Mavi-yaşıl rəngdə qiymətli daş; 5.Gürcüstanda şəhər; 7.Dünyanın ən böyük stadionu; 8.Yarımkeçirici cihaz; 10.ABŞ-da ştat; 11.Qədim Afinada hakimiyyət orqanı. Adını yığıncaqların keçirildiyi Afina Akropolu yaxınlığında yerləşən Ares təpəsindən alır; 12.Görkəmli hind mütəfəkkiri və vaizi. Kadam tibet buddizm məktəbinin banisi; 14.Qızdırma, baş ağrısı, qusma və ishal ilə müşayiət olunan infeksion xəstəlik; 19.Dairənin qövsü ilə bu qövsə söykənən vətərin əhatə etdiyi hissə; 21.Radioaktiv maddələrin buraxdığı üç növ şüadan biri; 22.Azərbaycan bəstəkarının adı; 23.Kanadada şəhər. Yeni Şotlandiya əyalətinin inzibati mərkəzi; 24.Kütlə vahidi; 25.Radioqəbuledicilərdə istifadə olunan yüksəktezlikli elektrik rəqsləri generatoru.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qranat; 2.Diametr; 3.Adept; 4.Çikaqo; 5.Bruni; 6.Triada; 9.Urdu; 13.Kasa; 15.Maestro; 16.Smirna; 17.Kazino; 18.Akkord; 20.Lemma; 21.Ofris.

**Soldan sağa:** 1.Qudyalçay; 5.BƏT; 7.Arabeska; 8.Muti *(Ornella)*; 10.Agent; 11.Qarfild *(Ceyms)*; 12.Krako; 14.Xurma; 19.Melissa; 21.Oçerk; 22.Romb; 23.Libretto; 24.Aba; 25.Krossvord.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14200**

idman

# Tələbələr arasında velosiped yarışı

*«Azərbaycan gəncliyi 2011-2015-ci illərdə» Dövlət Proqramının müvafiq bəndinin icrası, velosiped idmanının daha da populyarlaşması və kütləviliyi, gənclərin asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təbliğ olunması məqsədilə Azərbaycan Velosiped İdmanı Federasiyası yeni layihəyə start verir.*




Azərbaycan Dövlət Pedaqoji Universiteti Tələbə Gənclər Təşkilatı ilə əldə olunmuş razılığa əsasən, adı çəkilən ali təhsil ocağının fakültələrarası «Tələbə Kuboku» yarışı keçiriləcək. Veloparkda təşkil olunacaq yarış noyabrın 29-da saat 11:00-da start götürəcək. Komandaların tərkibi 4 nəfərdən ibarət olacaq (2 qız, 2 oğlan).

İştirakçılar federasiya tərəfindən velosiped və digər zəruri avadanlıqlarla təmin olunacaq. İlk 3 yeri tutacaq komandalar müvafiq olaraq 200, 150 və 100 manat pul mükafatı, diplom və xatirə hədiyyələri ilə təltif ediləcək.

Qeyd edək ki, Pedaqoji Universitetin tələbələri arasında keçiriləcək bu yarış pilot layihədir və lazımi nəticə əldə olunacağı təqdirdə, respublikamızın digər ali təhsil ocaqları arasında ümumrespublika «Tələbə Kuboku»nun təşkili də nəzərdə tutulur.

# Şəmkirdə veloyürüş keçirilib

***Şəmkir Şəhər İcra Hakimiyyəti və Bakı Oxford məktəbinin yerli filialının birgə təşkilatçılığı ilə velotur keçirilib.***

Yarış 12 noyabr - Konstitusiya günü və Oxford məktəbinin Şəmkir filialının yaradılmasının 5 illik yubileyinə həsr olunub.

Yarışdan öncə şəhər icra hakimiyyətinin nümayəndələri, həmçinin Oxford məktəbinin müəllim və şagird heyəti ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib sonra isə velotura start verilib.

Kütləvi xarakter daşıyan yarışda Oxford məktəbinin şagirdləri mübarizə aparıblar. Ayxan İslamzadə, Ülvi İsmayılov və Gülçin Yusifova öz qruplarında bütün rəqiblərindən güclü olublar.

# Şəhriyar Məmmədyarov mötəbər turnirin qalibi oldu

*Soçidə məşhur şahmatçı Mixail Talın xatirəsinə həsr olunmuş blits-turnirə yekun vurulub.*



Azərbaycan Şahmat Federasiyasından bildiriblər ki, turnirdə Azərbaycanı təmsil edən beynəlxalq dərəcəli qrossmeyster Şəhriyar Məmmədyarovla yanaşı, dünya səviyyəli şahmatçılar - Vladimir Kramnik, Sergey Karyakin, Pyotr Svidler, Aleksandr Qrişuk, Yan Nepomnyaşiy, Yevgeni Tomaşevski, Aleksandr Morozeviç, Ernesto İnarkiev, Aleksandra Kostenyuk (hamısı Rusiya), Boris Gelfand (İsrail) və Peter Leko (Macarıstan) mübarizə aparıblar.

Yarış dairəvi sistem üzrə keçirilib. Əsasnaməyə görə şahmatçılar bir-biri ilə 2 dəfə - həm ağ, həm də qara fiqurlarla qarşılaşıblar.

Şəhriyar Məmmədyarov 22 mümkün xaldan 16 xal toplayaraq turnirin qalibi adını qazanıb. Aleksandr Qrişuk 15.5 xalla 2-ci, Aleksandr Morozoviç isə 12.5 xalla turnirin üçüncüsü olub.

# Azərbaycanın qadın boksçuları dünya çempionatında

*Koreya Respublikasının Jeju şəhərində boks üzrə qadınlar arasında dünya çempionatına start verilib. Yarışda 67 ölkədən 337 boksçu qələbə uğrunda mübarizə aparır.*




Azərbaycan Boks Federasiyasından bildiriblər ki, seçmə komandamız dünya çempionatında 8 idmançı ilə təmsil olunur. Əsas medal ümidlərimizdən biri - Avropa çempionu, dünya çempionatının gümüş mükafatçısı Yelena Vıstropovadır (69 kq).

Baş məşqçi Şamil Məhəmmədbəyov heyətə Əzizə Abbasova (48 kq), Anaxanım Ağayeva (51 kq), Anna Əlimərdanova (54 kq), Məhsəti Həmzəyeva (57 kq), Yana Alekseyeva (69 kq), Leyla Cavadova (75 kq) və Aynur Rzayevanı (81kq-dan artıq) daxil edib.

Boksçularımızdan Anaxanım Ağayeva tailandlı Sopida Satumrum, Məhsəti Həmzəyeva meksikalı Esquvel Ledesmay, Yana Alekseyeva macarıstanlı Vivien Tsombor, Yelena Vıstropova ingiltərəli Steysi Kopeland ilə üz-üzə gələcəklər.

mozaika

## Göydələnlər arasında...

sensasiya



Amerikalı kəndirbaz və akrobat Nik Vallenda minlərlə insanın gözü qarşısında Çikaqodakı göydələnlər arasında çəkilmiş kəndirin üzəri ilə addımlayıb. O, məsafənin bir hissəsini sığorta tədbirləri görmədən və gözübağlı qət edib.

Adını altı dəfə Ginnesin rekordlar kitabına yazdıran 35 yaşlı idmançı əvvəlcə kəndir vasitəsilə şəhərlə eyni adı daşıyan çayın müxtəlif sahillərində yerləşən göydələnlər arasındakı məsafəni keçib. Çayın şimal sahilindəki «Marina City» kompleksinin binaları arasından isə gözünü bağlayaraq keçən Vallenda sığorta tədbirlərindən də imtina edib. Çikaqo çayını 150 metr hündürlükdən keçən kəndirbaz binalar arasındakı məsafəni 6 dəqiqə 52 saniyəyə qət edib. Bu zaman o, saatda 40 kilometr sürətlə əsən küləklə də mübarizə aparmalı olub.

Kəndir üzərində ilk addımlarını iki yaşında atan amerikalı akrobat 2013-cü ildə 450 metr hündürlükdən çəkilmiş kəndir vasitəsilə Böyük Kanyonu da fəth etmişdi.

cəmiyyət

## Tokioda əslən bakılı Rixard Zorgenin xatirəsi anılıb

*Əfsanəvi kəşfiyyatçının ölümünün 70-ci ildönümünə həsr olunmuş mərasim iştirakçıları - Rusiyanın Yaponiyadakı səfirliyinin əməkdaşları, Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin adını daşıyan məktəbin şagirdləri onun Tokio yaxınlığında yerləşən Tama qəbiristanlığındakı məzarını ziyarət ediblər.*

Rixard Zorgenin rəhbərlik etdiyi qrup II Dünya müharibəsi zamanı düşmən tərəf haqqında verdiyi iki məlumatla diqqəti cəlb edib. Bunlardan birincisi Almaniyanın Sovet İttifaqına hücumunun vaxtı və bu zaman düşmən tərəfinin tətbiq edəcəyi qüvvələr barədə olub. İkinci məlumat isə Yaponiyanın SSRİ-yə hücum etməyəcəyi haqda xəbər idi. Mütəxəssislərin qənaətinə görə, bu xəbər müharibənin gedişinə əsaslı təsir göstərmişdi. Məhz bu məlumat əsasında Sovet İttifaqı ölkənin şərqində yerləşən diviziyaları Qərb cəbhəsinə köçürərək müharibənin gedişatında əsaslı dönüşə nail ola bilmişdi.

Yaponiyada Rixard Zorge istedadlı və istiqanlı, adı romantik hekayələrlə bağlı insan kimi xatırlanır. 2000-ci ildə «Asahi» qəzetinin minilliyin ən nüfuzlu şəxsiyyətləri barədə keçirdiyi sorğu zamanı Rixard Zorgenin adı «Yaponiya tarixinə düşmüş 100 nəfər» siyahısına daxil edilib.

R.Zorge 1933-cü ildən başlayaraq Yaponiyada alman qəzetlərinin müxbiri kimi çalışıb, eyni zamanda sovet kəşfiyyatına xidmət edib. Zorgenin bacarıqla işlədiyi analitik yazılar tezliklə ona Almaniya səfirliyinə yol açmağa da kömək edib. Səmimiliyi, geniş dünyagörüşü, biliyi və ağlı nəticəsində hərbi attaşe ilə dostluq münasibətləri quran R.Zorge çox çəkmədən səfirliyin mətbuat attaşesi təyin edilib.



R.Zorgenin həbsdə olduğu dövr belə, romantik çalarlarla zəngin idi. Deyilənə görə, R.Zorge SSRİ-nin xeyrinə kəşfiyyat aparmasını boynuna almağa onun qrupunda olan qadınların azad edilməsi şərti ilə razılıq vermişdi. O, 1944-cü il noyabrın 7-də edam olunub.

Yalnız 1964-cü ildə - ölümündən 20 il sonra Rixard Zorgeyə Sovet İttifaqı Qəhrəmanı adı verilib. Hazırda Bakıda, əfsanəvi qəhrəmanın anadan olduğu şəhərdə onun abidəsi, adını daşıyan məktəb, muzey və küçə var. Bundan başqa, R.Zorgenin adı Moskva, Lipetsk, Kazan, Ufa, Rostov, Astana, Novosibirsk və Sankt-Peterburq şəhərlərində də əbədiləşdirilib.

## İnsansız hava vasitələri

texnologiya

*Dünyada əkin sahələri azalmaqdadır, istehsala isə ehtiyac artır. Belə bir şəraitdə kameralarla təchiz edilmiş insansız hava vasitələri (robot) sayəsində daha az itki, daha çox səmərə əldə edilir.*

Dünyada hər il adambaşına düşən işlənən torpaq sahəsi azalır. Lakin buna paralel olaraq istehsal ehtiyacı da sürətlə artır. Ona görə də vahid sahədən əldə ediləcək səmərənin artırılması çox əhəmiyyətlidir. Bu səbəbdən, həssas əkinçilik deyilən yeni bir istehsal üsulu mühüm əhəmiyyət kəsb edir. Bu gün əkinçilikdə müvəffəqiyyət qazanmaq və məhsuldarlığı artırmaq üçün üç açar ünsür var: məlumat, texnologiya və idarəetmə. Bu ünsürlər gübrə, suvarma və kimyəvi dərmanlardan mümkün qədər az istifadə edilməsinə əsaslanır. Sistemi tətbiq etmək üçün isə məhsuldarlığın inkişafına ciddi nəzarət edilməsinə ehtiyac yaranır. Əkin sahəsini davamlı olaraq göstərmə imkanına sahib olan hava vasitələri kameralarla uzaqdan və yaxından sahəni araşdırır, yüksək keyfiyyətli fotoşəkillər əldə edir. Əkin sahələrinin insansız hava vasitələri ilə nəzarət altına alınması əkinçilərə çox böyük üstünlüklər verir.



Əvvəllər hərbi müdafiə texnologiyasında tətbiq olunan insansız hava vasitələrindən hazırda əkinçilikdə istifadə edilir.

## Dərmanların səmərəsi onların qəbul saatlarından asılıdır

sağlam həyat tərzi

*Alimlərə çoxdan məlumdur ki, aspirin və statin səhər və axşam saatlarında daha yaxşı təsir göstərir. Lakin bu fakt indiyə qədər elmi cəhətdən əsaslandırılmamışdı.*

Pensilvaniya Universitetinin mütəxəssisləri bir sıra tədqiqatlardan və minlərlə preparatı yoxladıqdan sonra müəyyən ediblər ki, bəzi dərman preparatlarının səmərəsi onların günün hansı vaxtında qəbul olunmasından asılıdır. Alimlər populyar dərmanların çoxunun qəbulu üçün ideal sxemlər tapıblar.

Alimlər bu fenomeni insan genlərinin xüsusiyyətləri nöqteyi-nəzərindən izah ediblər. Preparatın qəbulu və günün vaxtı arasında əlaqəyə təsir edən əsas amil bəzi genlərin fəallığıdır. Qara ciyərin və böyrəyin funksiyalarını yaxşılaşdıran preparatları saat 18-dən sonra qəbul etmək daha düzgündür. Tənəffüs sisteminin fəaliyyətində dəyişikliklərlə bağlı dərmanlar günortaya qədər daha səmərəlidir. Ürək preparatları səhər saatlarında daha yaxşı təsir edir.

Təbii ki, alimlərin bu tövsiyələrinə əməl etmək lazımdır. Lakin bəzən bir dərman gündə 2-3 dəfə təyin olunur, o zaman ənənəvi sxemə əməl edilməlidir. Hər halda, pasiyentlər həkimin təyinatına riayət etməlidirlər. Özünümüalicə və özünə müstəqil diaqnoz qoymaq isə yolverilməzdir.

**Müdriklər deyib ki...**

***«Etdiyiniz səhvləri gizlətməyin! Onların hər biri sizin həyat dərsinizdir».***
*Stiv Cobs (1955-2011)*

